QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 227 (5699) **30 noyabr** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# İlham Əliyev: "Bizim gücümüzün mənbəyi Azərbaycan xalqıdır"



Səh 3

Ölkəmizin yeniləşən və müasirləşən yol infrastrukturu...



2

Baş nazir Novruz Məmmədov BMT Baş katibinin müavini ilə görüşüb



3

Azərbaycan Hökuməti ilə BMT-nin Avropa İqtisadi Komissiyası arasında Birgə Bəyanat imzalanıb



4

YAP Ulu Öndər Heydər Əliyevin ideyaları ilə yaşayır və inkişaf edir



5

"Azərbaycan gəncliyi bunların iç üzünü görsün"



4

Arpine Ovannisyan: "Paşinyanın danışdıqları mifdir"



4

6

Salome Zurabişvili Gürcüstanın prezidenti seçilib



8

Robert Koçaryan həbs edilə bilər



9

Mühacirlərin qrant rüsvayçılığı



# Ölkəmizin yeniləşən və müasirləşən yol infrastrukturu...



***Ölkəmizin davamlı inkişafına, xalqımızın rifahının yüksəlişinə xidmət edən, sürətlə yeniləşən və müasirləşən yol infrastrukturu da müstəqil dövlətçiliyimizin çox mühüm nailiyyətlərindəndir. Bu sahədə Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi strategiyanı ölkə Prezidenti İlham Əliyev uğurla davam etdirərək, onu dövrün tələblərinə, zamanın şağırışına uyğun olaraq daha da zənginləşdirib. Bunun bariz nümunəsidir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə son 15 ildə Azərbaycanda sürətli və davamlı sosial-iqtisadi inkişafa nail olunub. Bu inkişafın əsas elementlərindən biri olan yol infrastrukturunun müasir səviyyədə yenidən qurulması istiqamətində ölkəmizdə tarixi layihələr icra olunub. Azərbaycanda son dövrlərdə yol infrastrukturunda baş verən əsaslı dəyişikliklərin nəticəsini hər bir vətəndaş öz şəxsi həyatında hiss edir. Dövlətimizin başçısının tapşırıq və göstərişlərinə əsasən, beynəlxalq əhəmiyyətli yolların inşası ilə yanaşı, yeni kənd yollarının çəkilməsi, mövcud yolların yenidən qurularaq müasir səviyyəyə çatdırılması istiqamətində də çox mühüm layihələr icra olunub.***

## İlham Əliyev: "Yol həm mədəniyyətdir, həm rahatlıqdır, həm müasirlikdir, həm də ölkənin səviyyəsini göstərir"






### İlin sonuna kimi isə 2 min km-i ötəcək

Bu ilin 8 ayı ərzində respublikanın avtomobil yollarının inkişafı istiqamətində çox mühüm layihələr həyata keçirilib və bir sıra nailiyyətlər əldə edilib. 2018-ci il üçün agentliyin tərtib etdiyi "Tədbirlər Planı"na əsasən, uzunluğu 415,2 km olan respublika əhəmiyyətli 11, Bakı şəhəri üzrə uzunluğu 107,8 km olan 13 və uzunluğu 1527,8 km olan 67 kəndlərarası avtomobil yolu layihəsi və 2 körpünün bərpası, Sumqayıt şəhərində 2 prospekt və 2 küçənin yenidən qurulması və Bakı şəhərində 5 ədəd piyada keçidinin tikintisi layihəsinin yerinə yetirilməsi nəzərdə tutulub. Bu layihələrin həyata keçirilməsi nəticəsində, 702 yaşayış məntəqəsində yaşayan 2,7 mln. nəfər əhalinin 2 050,8 km uzunluğunda rahat avtomobil yollarından istifadə etmələri təmin ediləcək.

Eyni zamanda, Bakı-Quba-Rusiya ilə dövlət sərhədi yeni avtomobil yolunun tikilməsi də prioritetlər sırasındadır. Şimal istiqamətində icrasına başlanılmış bu layihə Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin bir hissəsini təşkil edir və bölgədə turizmin, kənd təsərrüfatının inkişafına və beynəlxalq yükdaşımaların, həcminin artmasına müsbət təsir göstərəcək.

### Ölkəmiz yol infrastrukturunun keyfiyyətinə görə dünyada ön sıralardadır

Prezident İlham Əliyevin rəhbərliyi ilə son 15 ildə Azərbaycanda həyata keçirilən sürətli və davamlı sosial-iqtisadi inkişafın əsas elementlərindən biri də yol infrastrukturunun müasir səviyyədə yenidən qurulmasıdır. Belə ki, magistral yolların beynəlxalq standartlara uyğun yenidən qurulması, avtomobil yollarının istismarı, tikintisi və təmiri, eyni zamanda, yolların qorunması, təhlükəsizliyi və ətrafının yaşıllaşdırılması istiqamətində aparılan ciddi dönüş nəticəsi olaraq son 15 ildə ölkə üzrə 15 min kilometr uzunluğunda yol çəkilib. Təkcə bu ilin 9 ayında 30-a yaxın rayonda və paytaxtda təqribən 1 milyon əhalinin yaşadığı 500-dən çox yaşayış məntəqəsini əhatə edən layihələr üzrə tikinti və yenidənqurma işləri başa çatdırılıb.

Əldə olunan bu uğurlu nəticələri beynəlxalq reytinq agentliklərinin hesabatları da təsdiqləyir. Belə ki, Dünya İqtisadi Forumun reytinqlərində öz yerini hər zaman möhkəmləndirən Azərbaycan 2018-ci ildə MDB məkanında ən yaxşı yolları olan ölkə seçilib. Dünya İqtisadi Forumunun apardığı tədqiqata görə, Azərbaycan yol infrastrukturunun keyfiyyəti reytinqində dünyanın 140 ölkəsi arasında 34-cü yerdə qərarlaşıb.

Eyni zamanda, regionların, o cümlədən, kənd və qəsəbələri birləşdirən avtomobil yollarının, yolayrıcıların və körpülərin inşasına və yenidən qurulmasına xüsusi diqqət yetirilir. Bu cür yolların müasir səviyyədə inşası regionların inkişafına müsbət təsir göstərir, rayonların simasını əsaslı şəkildə dəyişdirir. Həmçinin, nəqliyyatın və əhalinin rahat, təhlükəsiz və maneəsiz hərəkətini təmin edir. Bu işlərin icrası, həm də onu nümayiş etdirir ki, Azərbaycanda bütün sosial layihələr uğurla icra olunur. Bu isə dövlətimizin həyata keçirdiyi məqsədyönlü siyasətin nəticəsidir. Bu siyasətin bəhrəsini isə hər bir vətəndaş öz həyatında hiss edir.

***RƏFİQƏ KAMALQIZI***

# İlham Əliyev: "Bizim gücümüzün mənbəyi Azərbaycan xalqıdır"

## *"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 72-ci kitabı çapdan çıxıb*

***Bir daha demək istəyirəm, Azərbaycan o ölkələrdəndir ki, öz sözünü deyir, öz siyasətini aparır. Bizim gücümüzün mənbəyi Azərbaycan xalqıdır. Əgər Azərbaycan xalqı bizim siyasətimizi dəstəkləməsə, biz müstəqil siyasət apara bilmərik. Bu gün müstəqil Azərbaycan istənilən məsələ ilə bağlı fəxr edə bilər. Həm siyasi, həm beynəlxalq nüfuzumuz artır, həm də iqtisadi inkişaf göz qabağındadır və dinlərarası, millətlərarası münasibətlər ən yüksək səviyyədə təmin olunur.***




AZƏRTAC xəbər verir ki, "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin yenicə çapdan çıxmış 72-ci kitabında yer alan bu fikirlər dövlətimizin başçısının 2016-cı il fevralın 17-də Gəncə şəhərində "İmamzadə" dini kompleksində aparılan əsaslı təmir və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanışlıq zamanı söylədiyi nitqindən götürülüb.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin 72-ci kitabındakı materiallar 2015-ci ilin dekabrından 2016-cı ilin fevralınadək olan dövrü əhatə edir. Həmin dövrdə Azərbaycanın yüksək səviyyədə təmsil olunduğu mühüm hadisələrdən biri Davos Forumu olub. Prezident İlham Əliyev Davosda keçirilən Dünya İqtisadi Forumunda iştirak etmək üçün İsveçrəyə işgüzar səfər edib. Kitaba Azərbaycan Prezidentinin Forum çərçivəsində bir sıra ölkələrin dövlət və hökumət başçıları, nüfuzlu şirkətlərin rəhbərləri ilə görüşlərinə, Forumun "Yeni enerji tarazlığı" mövzusunda sessiyasında iştirakına dair materiallar, habelə Prezident İlham Əliyevin Forumun rəsmi saytında yerləşdirilmiş "Azərbaycan iqtisadiyyatının gələcəyi" adlı geniş məqaləsi daxil edilib.

Nəşrdə Azərbaycan Prezidentinin Birləşmiş Ərəb Əmirliklərinə, İran İslam Respublikasına rəsmi səfərləri, Böyük Britaniyaya səfəri, Münxen Təhlükəsizlik Konfransında iştirak etmək üçün Almaniya Federativ Respublikasına işgüzar səfəri zamanı keçirdiyi görüşlərə, habelə ölkəmizə rəsmi səfərə gələn Əfqanıstan İslam Respublikasının Prezidenti ilə görüşünə, imzalanan sənədlərə, mətbuata bəyanatlara dair materiallar toplanıb.

Bu kitabda Azərbaycan Prezidentinin Türkiyə, ABŞ, Pakistan, Almaniya, Bolqarıstan, Yunanıstan və digər dövlətlərin, İqtisadi Əməkdaşlıq Təşkilatı, BMT, NATO, Avropa İttifaqının ölkəmizə səfər etmiş yüksəkvəzifəli şəxsləri ni qəbul etməsini əks etdirən materiallarla, İran İslam Respublikasının Radio-Televiziya Şirkətinə müsahibəsinin mətni ilə də tanış olmaq mümkündür.

Çoxcildliyin 72-ci kitabında Prezident İlham Əliyevin Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun 80 illik yubileyi münasibətilə bu institutun əməkdaşlarına, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Azərbaycan xalqına, Milad bayramı münasibətilə Azərbaycanın pravoslav xristian icmasına, SSRİ Xalq artisti Murad Kajlayevin 85, Xalq şairi Nəriman Həsənzadənin 85 illik yubileyləri münasibətilə təbriklərinin mətnləri və digər məktubları da yer alıb.

Kitabda, həmçinin Prezident İlham Əliyevin 2015-ci ilin idman yekunlarına həsr olunan mərasimdə, Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında, iqtisadi və sosial məsələlərin həlli ilə bağlı müşavirədə, "Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının ikinci ilinin yekunlarına həsr olunmuş konfransda, Azərbaycan Gənclərinin I Forumunun 20 illiyi münasibətilə ölkə gənclərinin bir qrupu ilə görüşündə söylədiyi nitqlərin mətnləri toplanıb.

Oxucu bu cilddə Prezident İlham Əliyevin Tovuz rayonuna, Gəncə şəhərinə səfərləri zamanı nəqliyyat, iqtisadi və sosial infrastruktur, habelə mədəniyyət obyektlərinin, Bakıda Gözdən əlillər üçün yeni yaşayış binasının, "Baytarlıq şəhərciyi"nin, Zirə Mədəniyyət Mərkəzinin və Eko-Parkın açılış mərasimlərində iştirakına dair materiallarla tanış ola bilər. Kitabda "Qeydlər", "Şəxsi adlar", "Coğrafi adlar" göstəriciləri də verilib. "Azərnəşr" tərəfindən buraxılan 72-ci kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin materiallarından istifadə olunub.

# Baş nazir Novruz Məmmədov BMT Baş katibinin müavini ilə görüşüb



Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov noyabrın 29-da ölkəmizdə səfərdə olan BMT Baş katibinin müavini, təşkilatın Avropa İqtisadi Komissiyasının icraçı katibi Olga Algayerova ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə BMT-nin Avropa İqtisadi Komissiyası arasında əməkdaşlığın perspektivləri müzakirə edilib. Azərbaycan ilə BMT və onun strukturları arasında əlaqələrin uğurla inkişaf etdiyini deyən Novruz Məmmədov qeyd edib ki, respublikamız Birləşmiş Millətlər Təşkilatının üzvü olan dövlətlərin 2015-ci ilin sentyabrında keçirilən Dayanıqlı İnkişaf Sammitində 2016-2030-cu illər üçün təsdiqlənmiş Dayanıqlı İnkişaf Məqsədlərinə qoşulub. Qarşıya qoyulmuş məqsəd və hədəflər dayanıqlı inkişafın iqtisadi, sosial və ekoloji aspektlərini əhatə etməklə, Minilliyin İnkişaf Məqsədlərinə əsaslanır və növbəti istiqamətləri müəyyənləşdirir. Baş nazir BMT Baş katibinin müavininin ölkəmizə səfərinin bu əməkdaşlığa öz töhfəsini verəcəyinə əmin olduğunu deyib.

Azərbaycan Hökuməti ilə BMT-nin Avropa İqtisadi Komissiyası arasında Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi ilə bağlı əməkdaşlığa dair Birgə Bəyanatın imzalanmasını dəyərləndirən Baş nazir diqqətə çatdırıb ki, ölkəmiz ötən illər ərzində Minilliyin İnkişaf Məqsədləri üzrə bir çox hədəfləri, xüsusilə insanların sağlamlığının qorunması, ətraf mühitin yaxşılaşdırılması, yoxsulluğun aradan qaldırılması, əhalinin təhsil səviyyəsinin yüksəldilməsi, gender bərabərliyinin təşviq və təmin olunması üzrə mühüm nailiyyətlər əldə edib.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə qonağa ətraflı məlumat verən Baş nazir BMT-nin münaqişə ilə bağlı qəbul etdiyi 4 qətnamənin hələ də yerinə yetirilmədiyini təəssüflə qeyd edib.

Azərbaycanın və onun yerləşdiyi regionun əhəmiyyətini vurğulayan BMT Baş katibinin müavini Olqa Algayerova ölkəmizə səfərindən məmnun olduğunu bildirib. Bakıda keçirdiyi görüşlərdə Dayanıqlı İnkişaf üzrə 2030-cu il Gündəliyi ilə əlaqədar bir sıra məsələlərin müzakirə olunduğu qeyd edən qonaq bunun nəticəsi kimi Birgə Bəyanatın imzalandığını diqqətə çatdırıb. Rəhbərlik etdiyi qurumun su, ekologiya, energetika, nəqliyyat, statistika, ticarətin asanlaşdırılması və digər məsələlərlə məşğul olduğunu bildirən Olga Algayerova Azərbaycan ilə əməkdaşlıqdan məmnun olduğunu deyib. O, Dayanıqlı İnkişaf Məqsədlərindən irəli gələn vəzifələri həyata keçirmək üçün reallaşdırılan layihələrə birgə dəstək verməyin vacibliyini bildirib. Avropa İqtisadi Komissiyasının Azərbaycan ilə regional formatda da işlədiyini söyləyən Olga Algayerova bu əlaqələrin gələcəkdə daha da möhkəmlənəcəyinə əminliyini ifadə edib. Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olunub.

# Elmar Məmmədyarov UNECE-nin icraçı katibi ilə görüşüb

***Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarov BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının (UNECE) icraçı katibi Olqa Alqayerova ilə görüşüb. SİA-nın verdiyi məlumata görə, həmsöhbətlər Azərbaycanla UNECE arasında təşəkkül tapmış ənənəvi əlaqələri məmnuniyyətlə qeyd ediblər.***



O.Alqayerova səfər çərçivəsində təmsil etdiyi qurum ilə Azərbaycan Respublikasının Hökuməti arasında BMT-nin 2030 Dayanıqlı İnkişaf Məqsədlərinin yerinə yetirilməsi üzrə Birgə Bəyanatın imzalanmasını təqdirəlayiq hal kimi göstərərək, Azərbaycanın ümumiyyətlə BMT orqanları sistemində, o cümlədən UNECE-də təşəbbüskar mövqeyi ilə seçildiyini, qurumun fəaliyyətinə mühüm töhfə verdiyini yüksək dəyərləndirib. O, ölkəmizə hazırkı səfəri çərçivəsində Dayanıqlı İnkişaf Məqsədlərinin yerinə yetirilməsinə cavabdeh olan dövlət qurumlarının nümayəndələri ilə görüşün təşkilini bu istiqamətdə atılan səmərəli praktiki addım kimi səciyyəndirib.

Nazir Elmar Məmmədyarov Avropada iqtisadi inkişaf meyllərinin izlənilməsi və onun təmin edilməsi məqsədilə UNECE çərçivəsində intensiv siyasi dialoq və səmərəli təcrübə mübadiləsi mexanizmlərinin vacib rol oynadığını qeyd edib. Bu xüsusda o, ölkəmizdə aparılan islahatların və həyata keçirilən inkişaf proqramlarının nəticəsində sabit və dayanıqlı inkişafın təmin edildiyini vurğulayıb.

Xalqımızın rifahı naminə Azərbaycanın zəngin potensialından daha da səmərəli istifadə edilməsi məqsədilə, regional əməkdaşlıq layihələrinə böyük diqqət yetirildiyini deyən nazir Elmar Məmmədyarov neft-qaz sektorunda həyata keçirilən strateji layihələrlə yanaşı, Şərq-Qərb, Şimal-Cənub və Cənub-Qərb nəqliyyat dəhlizlərinin ümdə əhəmiyyətindən bəhs edib.

Ermənistan-Azərbaycan münaqişəsinə toxunan nazir Elmar Məmmədyarov Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərində qanunsuz mövcudluğunun, o cümlədən Sərsənq su anbarının işğal altında saxlanılmasının regional sülh və təhlükəsizlik, habelə ekoloji vəziyyət üçün ciddi təhdid olmaqla bərabər, Cənubi Qafqaz bölgəsi və daha geniş Avropa məkanında hərtərəfli əməkdaşlığa əngəl törətdiyini qeyd edib. Həmsöhbətlər Azərbaycanla UNECE arasında ənənəvi əlaqələrin gələcəkdə də uğurla inkişaf edəcəyindən əminlik ifadə edərək, ölkəmizin qlobal iqtisadiyyat sistemində tutduğu yeri, habelə qarşılıqlı maraq doğuran digər məqamlar üzrə fikir mübadiləsi aparıblar.



## Azərbaycan Hökuməti ilə BMT-nin Avropa İqtisadi Komissiyası arasında Birgə Bəyanat imzalanıb



Noyabrın 29-da Nazirlər Kabinetində Azərbaycan Hökuməti ilə BMT-nin Avropa İqtisadi Komissiyası arasında Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi ilə bağlı əməkdaşlığa dair Birgə Bəyanat imzalanıb. AZƏRTAC xəbər verir ki, sənədi Azərbaycan Respublikası Baş nazirinin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov və ölkəmizdə səfərdə olan BMT Baş katibinin müavini, təşkilatın Avropa İqtisadi Komissiyasının icraçı katibi Olga Algayerova imzalayıblar.

Azərbaycanla BMT arasında əməkdaşlığın müzakirə edildiyi görüşdə Baş nazirin müavini bir sıra sahələrdə uğurlu layihələrin reallaşdırıldığını bildirib, həmin layihələrin bir çoxunun dayanıqlı inkişafla bağlı olduğunu vurğulayıb. BMT Baş katibinin müavini Olga Algayerova Azərbaycanla əməkdaşlığın məmnunluq doğurduğunu qeyd edib. Qonaq Dayanıqlı İnkişaf Məqsədlərindən irəli gələn vəzifələri həyata keçirmək üçün reallaşdırılan layihələrə dəstək verməyə hazır olduqlarını deyib.

## Vladimir Putin Tahir Salahovu 90 illik yubileyi münasibətilə təbrik edib



Rusiya Prezidenti Vladimir Putin SSRİ-nin və Azərbaycanın Xalq rəssamı Tahir Salahovu 90 illik yubileyi münasibətilə təbrik edib. AZƏRTAC xəbər verir ki, Kremlin saytında yerləşdirilmiş məktubda deyilir: "Siz nadir istedad sahibi, genişmiqyaslı yaradıcılıq planları quran, sənətinə tələbat duyulan rəssam və pedaqoq kimi tanınmısınız, parlaq istedadlı şagirdlərinizin və davamçılarınızın bütöv bir nəslini tərbiyə etmisiniz. Sizin çoxplanlı, həmişə maraqlı sərgi və bərpa layihələrinin reallaşdırılmasına böyük töhfəniz, incəsənətə sədaqətiniz, əlbəttə, ən dərin hörmətə və ehtirama layiqdir". Prezident Vladimir Putin Xalq rəssamı Tahir Salahova cansağlığı diləyib, ən xoş arzularını bildirib.

## "Azərbaycan gəncliyi bunların iç üzünü görsün"



"Biz hər zaman deyəndə ki, Azərbaycanda müəyyən insanlar var ki, hər hansı bir qrupların maşalarıdır, onlardan istifadə edilir, xarici təşkilatlar tərəfindən məqsədli şəkildə maliyyələşdirilir o saat bizi yalançı çıxarmağa çalışırdılar. Artıq bir neçə gündür ki, xaricdə yaşayan və Azərbaycan dövlətinə qarşı ardıcıl şəkildə kampaniya aparan şəbəkənin aparıcı nümayəndələri Məhəmməd Mirzəli və Tural Sadıqlı bir-birinə qarşı ifşaedici açıqlamalar verirlər". Bunu SİA-ya açıqlamasında Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, hakim Partiyanın Gənclər Birliyinin sədri Seymur Orucov deyib.

YAP GB sədrinin sözlərinə görə, onların əsas məqsədləri hansısa bir maddi, sosial məsələlərin həlli üçün nəsə səy göstərmək deyil: "Bu adamlar öz etirazlarını bildirərək guya xalqın yanında olmağı göstərmək istəyirlər. Biz heç bir zaman onların Azərbaycanın ən böyük problemi olan Dağlıq Qarabağ məsələsi ilə bağlı, Xocalı soyqırımı ilə bağlı tədbir keçirdiklərinin şahidi olmamışıq. Xüsusilə də Avropada yaşayan həmin o qrant alan şəxslər buna heç bir səy belə göstərməyiblər. Artıq onlar bir-birlərini ifşa etməklə məşğuldurlar. Təbii ki, onların sayı o qədər çox deyil. Bunları birləşdirən bir dəyər var, o da qrant almaq və qarınlarını doydurmaqdır. Azərbaycanın problemi, uğuru, əldə etdiyi nailiyyətlərin heç biri onlar üçün maraqlı deyil. Onları özlərinin şəxs maraqlarından bu tərəfə heçnə maraqlandırmır. Hələ bundan sonra da digər qrant alanların iç üzləri bəlli olacaq. Ümumiyyətlə onların ideologiyadan heç bir anlayışları yoxdur. Sadəcə olaraq onlara təqdim olunan hazır materialları oxumaqla məşğul olublar. Təbii ki, bu da sonda ifşa olundu. Azərbaycan gəncliyi bunlara baxsın və onların iç üzlərini bir daha görsün".



## Naxçıvan Ali Məclisində görüş keçirilib

Noyabrın 29-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfirliyinin müvəqqəti işlər vəkili Uilyam Qil ilə görüşüb. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ali Məclisin Sədri Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki səfirliyinin muxtar respublikada həyata keçirdiyi tədbirləri diqqətə çatdırıb.

Təhsil və mədəniyyət sahələrində əlaqələrin əhəmiyyətini vurğulayan Ali Məclisin Sədri səfirlik tərəfindən 3 dekabr - Beynəlxalq Əlillər Günü münasibətilə Naxçıvanda məhdud fiziki imkanlı şəxslər üçün göstəriləcək tamaşanın məmnunluqla qarşılanacağına əminliyini bildirib və buna görə qonağa təşəkkür edib. Uilyam Qil səmimi münasibətə və səfirlik tərəfindən keçirilən tədbirlərə göstərilən dəstəyə görə minnətdarlıq edib. Ölkələrimiz arasındakı əlaqələrdən danışan qonaq muxtar respublikaya ilk dəfə səfər etdiyini və bundan böyük məmnunluq duyduğunu bildirib.

## Bahar Muradova Türk Dünyası Qadın Platformasının nümayəndələri ilə görüşüb



Noyabrın 29-da Milli Məclis sədrinin müavini Bahar Muradova ölkəmizdə səfərdə olan Türk Dünyası Qadın Platformasının (TÜRKAP) nümayəndələri ilə görüşüb. Milli Məclisin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qonaqları Azərbaycan parlamentində salamlamaqdan məmnunluğunu bildirən Bahar Muradova Türkiyə ilə bütün sahələrdə münasibətlərin Azərbaycan üçün böyük önəm kəsb etdiyini bildirib. Ulu öndər Heydər Əliyevin "bir millət - iki dövlət" kəlamını xatırladan Bahar Muradova Türkiyə və Azərbaycan parlamentləri arasında münasibətlərin yüksək səviyyədə olduğunu, qardaş ölkələrimiz arasındakı münasibətlərin bütün dünyaya nümunə göstərildiyini vurğulayıb.

Bahar Muradova Türkiyə, Azərbaycan, Özbəkistan, Qazaxıstan, Qırğızıstan və Şimali Kiprin təşəbbüsü və təşkilatçılığı ilə yaranan bu təşkilatın çox müqəddəs amallar uğrunda fəaliyyət göstərəcəyindən məmnun olduğunu bildirib. Təşkilatın qarşısına qoyduğu hədəflərin ortaq siyasi-mədəni tədbirlərin təşkili, qadınların fəaliyyətinin sərhədlərinin genişləndirilməsi, türk dünyası qadınları arasında dialoq və tarixi qardaşlıq bağlarının gücləndirilməsi olduğunu qeyd edib.

TURKAP nümayəndə heyətinin rəhbəri, Türkiyə Böyük Millət Məclisinin deputatı Mihrimah Belma Satır Azərbaycanda özlərini doğma evlərində olduğu kimi hiss etdiklərini diqqətə çatdırıb. Bu ilin sentyabrında İstanbulda təsis olunan təşkilatın gələcək fəaliyyətindən, qarşıya qoyulan hədəflərə doğru irəliləmək yolunda atılan addımlardan danışıb. O bildirib ki, bu ilin dekabrında İstanbulda təşkilatın üzvü olan 200 qadının iştirakı ilə qurumun beynəlxalq forum keçiriləcək. Görüşdə iştirak edən Milli Məclisin ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı, deputatlar Sahibə Qafarova, Sevinc Fətəliyeva, Kamilə Əliyeva, Jalə Əliyeva, TBMM deputatı Rəsmiyyə Çanaltay, Hesablama Palatasının auditoru Mehriban Alışanova, TURKAP təşkilatının qurucusu Zait Nahmatov, filoloq-alim Şərəf Cəlilli və başqaları təşkilatın fəaliyyətinin türk dünyası üçün çox əhəmiyyətli olacağını bildirib, nəzərdə tutulan layihələrin qadınlarımızın və tərəqqipərvər cəmiyyətimizin inkişafına xidmət edəcəyini qeyd ediblər.

## Milanda GUAM+Kanada formatında nazirlərin ilk görüşü keçiriləcək



Dekabrın 6-da İtaliyanın Milan şəhərində GUAM+Kanada formatında ilk görüş keçiriləcək. Ukrayna Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-ın xüsusi müxbirinə bildiriblər ki, görüşdə GUAM dövlətləri ilə Kanada arasında siyasi, iqtisadi əməkdaşlığın perspektivləri müzakirə ediləcək.

## Arpine Ovannisyan: "Paşinyanın danışdıqları mifdir"



"Baş nazir vəzifəsini icra edənin maaşların artırılacağı ilə bağlı bəyanatı həqiqətə qarşı landa mifdir, hansı ki, bundan birmənalı şəkildə yalnız yüksək məvacib alanlar udacaq". SİA erməni mətbuatına istinadən xəbər verir ki, bu barədə Respublika partiyasının siyahısından deputatlığa namizədliyi irəli sürülmüş Arpine Ovannisyan Facebook səhifəsində yazıb.

Ovannisyan Nikol Paşinyanın maaşlardan tutulan vergilərin azaldılacağı halda, məvaciblərin yüksələcəyi barədə fikirlərini şərh edərkən onu da bildirib ki, sonradan o, özü-özünü inkar edib. "Guya ki, o sosial təminatları az olan insanların məsələlərini həll edib, indi də maaş artımından danışır", deyən Respublika partiyasının təmsilçisi onu da bildirib ki, baş nazir səviyyəsində olan birinin öz sözlərini "vuran" bəyanatlarla çıxış etməsi təəccüblüdür.

# YAP Ulu Öndər Heydər Əliyevin ideyaları ilə yaşayır və inkişaf edir

## Partiyanın Gəncə şəhər təşkilatının 25-ci ildönümü təntənə ilə qeyd olunub

***Dünən Gəncədə Yeni Azərbaycan Partiyasının yaradılmasının 26-cı, YAP Gəncə şəhər təşkilatının yaradılmasının 25-ci ildönümü münasibəti ilə konfrans keçirilib. Tədbir iştirakçıları əvvəlcə partiyanın yaradıcısı Heydər Əliyevin adını daşıyan mərkəzdə Ümummilli Liderin abidəsi önünə gül dəstələri düzərək, aziz xatirəsini ehtiramla yad ediblər.***



Konfransı giriş sözü ilə açan Gəncə şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramov bildirib ki, ölkənin bugünkü sürətli inkişafında, respublikanın beynəlxalq nüfuzunun artmasında, bütün sahələrdə əldə olunan tərəqqidə xüsusi rola malik olan Yeni Azərbaycan Partiyasının Ulu Öndər Heydər Əliyevin ideyaları ilə yaşayır və inkişaf edir: "İyirmi altı illik şərəfli tarixə malik YAP Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin daha da qüdrətlənməsi istiqamətində ciddi səylər göstərir və böyük uğurlara imza atır. Xalqın haqlı olaraq Ulu Öndər Heydər Əliyev partiyası adlandırdığı Yeni Azərbaycan Partiyası bundan sonra da Azərbaycanın qüdrətlənməsinə, dövlətçiliyimizin inkişafına








xidmət edəcək, xalqın yeganə etimad ünvanı olaraq hakim siyasi təşkilat statusunu özündə saxlayacaq".

Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyasının İcra katibinin müavini, Milli Məclisin deputatı Siyavuş Novruzov Yeni Azərbaycan Partiyasının keçdiyi inkişaf yolundan, Ulu Öndər Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində qazanılan uğurlardan danışıb. YAP-ın xalqımız və Azərbaycan dövlətçiliyi qarşısında böyük xidmətlərindən bəhs edən Siyavuş Novruzov, bildirib ki, YAP yarandığı gündən xalqa və dövlətə xidməti fəaliyyətinin əsas xətti kimi qəbul edib: "Ümummilli Lider Heydər Əliyevin ideyaları, uzaqgörənliyi və qətiyyəti nəticəsində yaradılan YAP-ın Azərbaycanın ictimai-siyasi həyatına daxil olması ilə Azərbaycanın tarixində yeni dövr başlayıb".

Millət vəkilləri Musa Quliyev, Pərvin Kərimzadə, YAP Gəncə şəhər təşkilatının sədr müavini, AMEA-nın Gəncə Bölməsinin akademik katibi Fuad Əliyev, Daşkəsən rayon icra hakimiyyətinin başçısı Əhəd Abıyev, YAP Şəmkir rayon təşkilatının sədri Fəxrəddin Vəliyev, ADAU-nun rektoru, professor İbrahim Cəfərov, çıxış edərək, partiyanın keçdiyi şərəfli inkişaf yoluna nəzər salıblar.



Azərbaycan dövlətçiliyinin formalaşmasında, ictimai-siyasi sabitliyin bərqərar olmasında, ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artmasında YAP-ın mühüm rolu və xidmətlərindən söz açan natiqlər Prezident İlham Əliyevin rəhbərliyi altında Ulu Öndər Heydər Əliyevin dövlətçilik strategiyasının uğurla reallaşdırıldığını və dövrün tələbləri baxımından inkişaf etdirilərək, bütün sahələrdə möhtəşəm nailiyyətlərin əldə olunduğunu vurğulayıblar.

YAP Gəncə şəhər təşkilatının sədri Naqif Həmzəyev çıxış edərək, Prezident Cənab İlham Əliyevin Sədri olduğu YAP-ın bu gün bizim qarşımızda xalqımıza, dövlətimizə sədaqətlə xidmət etmək, həyatda fəal olmaq və Azərbaycanın dövlət müstəqilliyinin qorunub- saxlanılması yaxından iştirak etmək kimi vəzifələr qoyduğunu diqqətə çatdırıb. Naqif Həmzəyev, həmçinin bildirib ki, 252 ərazi ilk partiya təşkilatında 42112 nəfər partiya üzvünü birləşdirən YAP Gəncə şəhər təşkilatı da böyük inkişaf yolu keçərək, öz sıralarını daim genişləndirib, partiyanın



proqram və prinsiplərinə uyğun olaraq, qarşıya qoyulan vəzifələrin icrasını ləyaqətlə yerinə yetirib: "Sevindirici haldır ki, təşkilatın üzvlərinin 56,3 faizini gənclər, 62,7 faizini isə qadınlar təşkil edir. Bütün bunlar, YAP Gəncə şəhər təşkilatının üzvlərinin Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyevin ətrafında sıx birləşdiyinin, müstəqil Azərbaycanın çiçəklənməsi və tərəqqisi naminə əzmkarlıqla fəaliyyət göstərdiklərinin göstəriciləridir".

Tədbirin sonunda Gəncə şəhərinin ictimai-siyasi həyatında fəallıq göstərən vete-



ran partiya üzvləri təltif edilib, YAP sıralarına yeni qoşulan bir qrup gəncə partiya vəsiqələri təqdim olunub.

Gəncə şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramov və Yeni Azərbaycan Partiyasının İcra katibinin müavini, millət vəkili Siyavuş Novruzov YAP Gəncə şəhər təşkilatının 42 mininci üzvlük vəsiqəsini ADAU-nun tələbəsi Gülşən Nəbiyevaya təqdim edərək, milyonlarla insanın inam və etimad



ünvanına çevrilən partiyanın sıralarında uğurla addımlamağı arzulayıblar.

**RÖVŞƏN RƏSULOV**

# Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində “Vəhdət” filminin ilk nümayişi olub



**Noyabrın 29-da Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində (BBMM) Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sifarişi ilə hazırlanmış “Vəhdət” sənədli filminin ilk nümayişi olub.**

AZƏRTAC xəbər verir ki, BBMM-in icraçı direktor əvəzi Rəvan Həsənov filmin əhəmiyyətindən söz açıb. “Biz xarici ölkələrdə olanda və xarici nümayəndələr ölkəmizə gələndə Azərbaycanın multikulturalizm dəyərləri haqqında məlumatlar veririk. Həmin məlumatların ən mühümlərindən biri də Azərbaycanda müxtəlif dinlərə və məzhəblərə məxsus insanların dinc şəraitdə yaşamaları, xüsusilə sünni və şiələrin bir yerdə vəhdət namazı qılmalarıdır. Vəhdət namazının ulu öndər Heydər Əliyevin adını daşıyan Heydər məscidində icra olunması xüsusi əlamətdir. Çünki Ulu Öndər Azərbaycanda multikulturalizmin siyasi əsaslarının banisidir. O, Azərbaycanda dövlət-din münasibətlərini və dinlərarası harmoniyanı ən yüksək səviyyəyə çatdıran tarixi şəxsiyyətdir. Bu siyasət hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir”, - deyə R.Həsənov bildirib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib ki, İslamda vəhdətə nail olmaq istiqamətində zaman-zaman müəyyən addımlar atılıb. İslamda vəhdət, ittihad kimi çağırışların olduğunu deyən komitə sədri söyləyib ki, bu məsələ hələ də aktuallığını saxlamaqdadır. Azərbaycanda da müsəlman ölkəsi olaraq bu istiqamətdə addımlar atılıb. Ölkəmizin dövlət-din modelində vəhdət siyasəti əhəmiyyətli yerlərdən birini tutur. Ölkəmizdə vəhdət namazları qılınır. Qafqaz Müsəlmanları İdarəsi də vəhdət namazının daha geniş şəkildə icra edilməsi istiqamətində imamlara və məscidlərdə çalışan din xadimlərinə tövsiyələrini verir.

Diqqətə çatdırılıb ki, bu günlərdə İslam dünyasında vəhdət həftəsi keçirilib. “Vəhdət” filmi Azərbaycanda İslama aid olan ayrı-ayrı məzhəblər, təriqətlər arasında birliyə, əməkdaşlığa çağırır. Filmin məsləhətçiləri



DQİDK-nın sədr müavinləri, mütəxəssislərdir. Bu filmin geniş şəkildə yayılması, televiziya vasitəsilə göstərilməsi Azərbaycanda dini maarifləndirmə işinə öz töhfəsini verəcək.

Milli Məclisin deputatı, “Yeni Azərbaycan” qəzetinin baş redaktoru Hikmət Babaoğlu deyib ki, “Vəhdət” filmində uzun əsrlərdir İslam dünyasının üzləşdiyi mürəkkəb problem göstərilir. Bu mürəkkəb şərtlər içərisində bir suala cavab axtarılır: vəhdət mümkündürmü? Azərbaycanda mümkündür. Filmdə Azərbaycanda vəhdətin tarixi, siyasi, mədəni əsasları göstərilir. Azərbaycan təkcə məzhəblərin vəhdət içində yaşadığı bir ölkə deyil, eyni zamanda, dinlərin vəhdət içində yaşadığı bir ölkədir.

Milli Məclisin deputatı, Azərbaycan rus icmasının sədri Mixail Zabelin “Vəhdət” filmini yüksək qiymətləndirib. Bildirib ki, bu film digər müsəlman ölkələrində nümayiş olunsa, qarşıdurmaların sayı da azalar. Azərbaycanda heç vaxt məzhəblərarası, başqa dinlərin nümayəndələri arasında qarşıdurmalar olmayıb. Ölkəmizdə hər zaman multikultural mühit hökm sürüb. Azərbaycanı nümunə göstərərək dünyaya nümayiş etdirmək olar ki, həm sünnilər, həm şiələr sülh şəraitində yaşa bilərlər.

Prezident Administrasiyasının millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin məsləhətçisi Ülviyyə Abbasova vurğulayıb ki, dini radikalizmlə mübarizə yollarından biri də maarifləndirmədir və bu istiqamətdə vacib işlər görülür. DQİDK-nın bu istiqamətdə gördüyü işlər təqdirəlayiqdir. Komitə maarifləndirici kitablar çap etdirir, insanları tolerantlığa çağıran, zorakılığın zərərlərini göstərən filmlər çəkdirir. “Vəhdət” filmi də bunlardan biridir.

Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Fuad Nurullayev, Bakı şəhəri dağ yəhudiləri dini icmasının rəhbəri Milix Yevdayev, İranın Azərbaycandakı səfirliyinin Mədəniyyət Mərkəzinin sədri Əsgər Farsi, İlahiyyat İnstitutunun rektoru Ceyhun Məmmədov və digərləri DQİDK-nın sifarişi ilə hazırlanmış “Vəhdət” sənədli filminin əhəmiyyətini qeyd ediblər. Bildirilib ki, film Azərbaycandakı məzhəblərarası birliyi və qardaşlığı tərənnüm edir. Bir çox ölkələrdə məzhəblərarası gərginlik müxtəlif rəqəmlərlə göstərildiyi halda, Azərbaycanda belə gərginlik yox dərəcəsindədir.

# Salome Zurabişvili Gürcüstanın prezidenti seçilib



Gürcüstan Mərkəzi Seçki Komissiyası (MSK) noyabrın 28-də keçirilmiş prezident seçkiləri ilə bağlı 3705 seçki məntəqəsinin hamısında səsvermənin nəticələrini elan edib. AZƏRTAC Gürcüstan MSK-ya istinadla xəbər verir ki, müstəqil namizəd, hakim “Gürcü arzusu - demokratik Gürcüstan” partiyasının dəstəklədiyi Salome Zurabişvili 59,52 faiz səs çoxluğu ilə qalib gəlib.

Onun rəqibi, “Vahid Milli Hərəkat” partiyasının və müxalifətin “Güc birlikdədir” birliyinin vahid namizədi Qriqol Vaşadze isə 40,48 faiz səs toplayıb.

# “Azərbaycan ailəsi-2018” film festivalının qalibləri mükafatlandırılıb

***Noyabrın 29-da Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Heydər Əliyev Fondunun və BMT-nin Əhali Fondunun birgə təşkilatçılığı ilə həyata keçirilən “Azərbaycan ailəsi” film festivalının qaliblərinin mükafatlandırılması mərasimi olub.***



AZƏRTAC xəbər verir ki, mərasimdə əvvəlcə festivala təqdim olunmuş film və fotolardan ibarət videoçarx nümayiş etdirilib.

Məlumat verilib ki, “Azərbaycan ailəsi” film festivalına 2009-cu ildən start verilib. Artıq dördüncü ildir ki, film festivalı çərçivəsində “Həyatdan şəklə” adlı fotomüsabiqə






də keçirilir. Təqdim olunan işlər Azərbaycanın görkəmli elm və mədəniyyət xadimlərindən ibarət münsiflər heyəti tərəfindən qiymətləndirilib və qaliblər müəyyən edilib. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova çıxış edərək bildirib ki, bu gün dünyada ailələrin sayının azaldığı müşahidə olunur. Təəssüf ki, bir çox ölkələrdə ailə anlayışı sosial institut kimi öz əhəmiyyətini itirmək üzrədir. Azərbaycanda isə ailə vətəndaş cəmiyyətinin formalaşmasında əsas element kimi qəbul olunur.

Komitə sədri qeyd edib ki, ulu öndər Heydər Əliyev hər zaman ölkəmizdə ailə siyasətinin formalaşdırılması işinə böyük diqqət yetirib. Bu siyasəti uğurla davam etdirən Prezident İlham Əliyev ailənin önəmli rolunu qiymətləndirərək vurğulayıb ki, ölkəmizin inkişafı, müstəqilliyimizin daha da möhkəmləndirilməsi və milli dəyərlərin tam şəkildə bərqərar edilməsi üçün ailə dəyərləri daim yüksəkdə olmalıdır. Bu məsələləri hər zaman diqqət mərkəzində saxlayan Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva da ölkədə ailə, qadın və uşaq problemlərinin həllinə böyük dəstək verir, qaçqın və məcburi köçkün ailələrə xüsusi qayğı göstərir.

Vurğulanıb ki, “Azərbaycan ailəsi” festivalının keçirilməsində əsas məqsədlərdən biri kinematoqrafiyanın geniş imkanlarından istifadə edərək bu sahədə mövcud olan problemləri işıqlandırmaqla onların həlli yollarının axtarılmasıdır.

Baş nazirin müavini Əli Əhmədov “Azərbaycan ailəsi” festivalının ailə dəyərlərinin qorunmasına və təbliğinə xidmət etdiyini bildirib. O qeyd edib ki, mənəvi sərvətimiz hesab olunan ailə cəmiyyətimizin özəyidir. Bəzi ölkələrdə cəmiyyət ailəsiz təsəvvür oluna bilər, Azərbaycanda isə bu cür deyil. Bizdə dövlət siyasətində ailəyə qayğı mühüm önəm kəsb edir. Festivalın digər müsbət təsiri odur ki, bu, həm də mədəni hadisədir. Cəmiyyətdə insanlar bu festival vasitəsilə öz yaradıcılıq imkanlarını inkişaf etdirə bilirlər.

Mədəniyyət naziri Əbülfəs Qarayev qeyd edib ki, bu festival vasitəsilə yaradıcı insanlar öz potensiallarını beynəlxalq aləmdə təbliğ etmək imkanı qazanırlar. Layihə çərçivəsində ailə ilə bağlı toxunulan mövzular hüdudsuzdur. Burada mədəniyyət, təhsil, sağlamlıq və digər sahələrin önündə ailə institutunun gəldiyi göstərilir. Bu festivala geniş auditoriyanın cəlb edilməsinin əsas səbəblərindən danışarkən onun təşkilatçılarından birinin də Heydər Əliyev Fondunun olmasını göstərmək lazımdır. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın fəaliyyətində bu məsələ önəmli yer tutur. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının Azərbaycandakı Tərəfdaşlıq və Əlaqələndirmə Ofisinin rəhbəri Mələk Çakmak bildirib ki, hər bir cəmiyyətdə sağlam ailə təfəkkürü təhsilə, səhiyyəyə və mənəviyyata müsbət təsir edir. Azərbaycanda ailə institutunun qorunması ilə bağlı tədbirlərin görüldüyünü deyən Mələk Çakmak əlavə edib ki, BMT bu sahədə tərəfdaşlıq etməkdən məmnundur.

Sonda müxtəlif nominasiyalar üzrə “Azərbaycan ailəsi-2018” film festivalının və “Həyatdan şəklə” fotomüsabiqəsinin qaliblərinə diplom və qiymətli hədiyyələr təqdim olunub.

# Vaşinqtonun Cənubi Qafqaz ssenarisi: 2019-cu ilin riskli proqnozları




***ABŞ-ın "Stratfor" analitik mərkəzi gələn il üçün apardığı təhlillər və verdiyi proqnozlarla narahatlıq yaradıb. Onun qənaətlərinə görə, 2019-cu ildə Cənubi Qafqazda Amerika, İran və Rusiya arasında qarşıdurma daha gərgin səviyyəyə yüksələ, regionda yerləşən Azərbaycan, Ermənistan və Gürcüstan isə bundan müəyyən təsirlər görə bilər. Lakin bu dövlətlərin hər biri ilə bağlı ABŞ-ın fərqli yanaşması vardır.***

"Stratfor" hesab edir ki, Vaşinqton Ermənistan və Gürcüstandan Rusiyaya qarşı, Azərbaycandan isə İrana qarşı istifadə etməyə çalışacaq. Bu zaman Ermənistana silah satışı, Gürcüstana isə silah satışı ilə yanaşı, birgə hərbi təlimlər keçirmək də təklif ediləcək. Azərbaycan ilə münasibətə gəlincə, Amerika tərəfindən İranla iqtisadi və enerji sahəsində əlaqələrdən imtina etmək təklif oluna bilər. Bütün bunlar son nəticədə regionun geosiyasi mənzərəsində riskləri artıra bilər. Həmin aspektdə "Stratfor"un proqnozları əsasında Cənubi Qafqazda növbəti ildə geosiyasi dinamikanın dəyişməsinin analizi üzərində dayanmağa ehtiyac görürük.

## Öz marağı naminə: **ABŞ-ın təhlükəli məqsədləri**

"Stratfor"un 2019-cu il üçün hazırladığı analitik hesabatda Cənubi Qafqaz və Mərkəzi Asiya faktorları da ciddi yer tutur. Cənubi Qafqaza analitik mərkəz ABŞ-Rusiya qarşıdurmasının bir fraqmenti kimi baxır. Bu yanaşma hansı məqamlarla bağlı ola bilər? Yəni nəyə görə geosiyasi baxımdan əhəmiyyətli olan bu region böyük güclərin savaş meydanı olmalıdır?

"Stratfor" hesab edir ki, Amerikanın gələn il üçün əsas hədəflərindən biri Rusiyanı geosiyasi məkanda sıxışdırmaqdan ibarət olmalıdır. Bunun üçün Rusiyanın sərhədləri boyu yerləşən keçmiş sovet respublikalarının ərazisindən istifadə edilməlidir. Buraya siyasi, iqtisadi, enerji sferaları ilə yanaşı, hərbi sahə də daxildir. Konkret deyilsə, Vaşinqton Rusiyaya qonşu olan keçmiş sovet respublikaları ilə əlaqələrində silah satışını və hərbi manevrlər etmək variantlarını da nəzərdə tutur.

KİV-də yayılan məlumatlara görə, Amerika rəsmiləri Ermənistana silah satmağı və Gürcüstanda hərbi manevrlər keçirməyi vəd edib. Silah satışı məsələsinə Azərbaycanı da daxil etmək planları haqqında yazılar dərc olunur.

Bütün bunları ABŞ Cənubi Qafqazda Rusiyaya təzyiqləri gücləndirmək məqsədi ilə edəcək (bax: The U.S. Zeroes in on Russia's Borderlands / "Stratfor", 15 noyabr 2018). Eyni zamanda, Vaşinqton Cənubi Qafqaz dövlətləri ilə təhlükəsizlik və hərbi sahələrdə əməkdaşlığı gücləndirməyi nəzərdə tutur. Burada iqtisadi stimullaşdırma da öz yerini tapacaq. Rusiya isə hibrid savaşın özünəməxsus taktikası ilə deyilənlərə cavab verməyə çalışmaqla bütün bunlardan Qərb və ABŞ-a müqavimət vasitəsi olaraq istifadə edəcək. Yuxarıda vurğulanan məqamlardan aydın olur ki, Amerika gələn il Rusiyadan asılı olan və təsir edə bildiyi ölkələri ondan uzaqlaşdırmaq taktikası ilə hərəkət etməyi planlaşdırır. Rusiya isə bunu əngəlləmək üçün əlində olan bütün vasitələrdən yararlanacaq.

Məsələyə daha konkret səviyyədə baxdıqda, daha maraqlı məqamlar üzə çıxır. Çünki Amerika öz geosiyasi məqsədinə nail olmaq üçün Cənubi Qafqaz ölkələrinin hər birinə fərqli yanaşma nümayiş etdirmək fikrindədir. "Stratfor"un analitikləri hesab edirlər ki, Amerika Ermənistana daha çox təsir etməyi düşünür. Vaşinqton Ermənistan hökuməti ilə əlaqələri möhkəmləndirməyə diqqət yetirəcək (bax: əvvəlki mənbəyə). Bunun üçün ABŞ Ermənistanla Rusiya arasında soyuqluq yaratmaq taktikasını davam etdirəcək.

Məhz buna görədir ki, Con Bolton İrəvanda Ermənistana silah satıla biləcəyindən bəhs edib. "Stratfor" bununla bağlı vurğulayır: "Baxmayaraq ki, Ermənistan sona qədər Rusiya ilə strateji yaxınlıqdan imtina etməyəcək, onlar arasındakı siyasi ixtilaflar Birləşmiş Ştatlara Moskvanın əyalətdəki açar müttəfiqini ondan ayıra bilmək imkanı yarada bilər" (bax: əvvəlki mənbəyə).

Belə çıxır ki, Amerika Rusiya ilə Cənubi Qafqazda aparacağı intriqa oyununu başlıca olaraq Ermənistan üzərindən qurmağı planlaşdırır. Burada Gürcüstanın Cənubi Qafqazda ABŞ-ın əsas tərəfdaşı olması faktı yada düşür. Ancaq Vaşinqton öz müttəfiqini bu işin önünə atmaq istəməz. Eyni zamanda, "Stratfor"un hesabatında vurğulanır ki, Gürcüstana silah satışı davam edəcək və onun ərazisində hərbi təlimlər keçirilib Moskvaya bu üsulla müəyyən mesajlar veriləcək.

Görünür, burada Abxaziya və Cənubi Osetiya məsələləri də xeyli aktuallaşa bilər. Məlumdur ki, hər iki regionda Rusiya hərbi kontingenti vardır. Çətin ki, NATO onlara birbaşa müdaxilə etsin, lakin Rusiya hərbçilərinin lap yaxınlığında Şimali Atlantika Alyansı əsgərlərinin manevrlər etməsi Moskvaya xoş gəlməyəcək. Cavabı nə olacaq? "Stratfor" bu barədə konkret fikir bildirmir.

## İkili standartlar qalır: **təcavüzkara silah, onun qurbanına təzyiq cəhdi**

Azərbaycan məsələsi də analitik hesabatda yer alıb. "Stratfor"un analitikləri hesab edirlər ki, Vaşinqton Azərbaycandan Rusiyaya qarşı deyil, İrana qarşı istifadə etməyə çalışacaq (bax: əvvəlki mənbəyə). Analitik mərkəz Azərbaycanı Ermənistanın başlıca düşməni kimi təqdim edir. Ancaq Bakı ABŞ-ın diqqətini çəkəcək. Söhbət İrandan getdikdə, Azərbaycan faktoru xüsusilə aktuallaşır. "Azərbaycanın cənub qonşusu ilə münasibətləri gərgin olacaq, belə ki, hökumət (Azərbaycan hökuməti nəzərdə tutulur - red.) ABŞ-ın İranı durdurmaq strategiyasında iştirak etməklə xarici siyasətdəki balansı saxlamağa can atacaq" (bax: əvvəlki mənbəyə).

Hesab edirik ki, Azərbaycanla bağlı ifadə edilən proqnostik fikirlər reallığa uyğun deyil. Çünki Azərbaycan müstəqil siyasət yeridir və ona kimsə öz maraqlarını diqtə edə bilməz. Bundan başqa, iki ölkə arasında yaxın əlaqələr mövcuddur və Bakının bu istiqamətdə hər hansı dəyişiklik etmək fikrində olduğu barədə informasiya yoxdur. Əksinə, Azərbaycanla İranın "Bir Qurşaq, Bir Yol" layihəsi çərçivəsində "Şimal-Cənub" və "Cənub-Qərb" dəhlizləri boyu əməkdaşlıq etməkdə qərarlı olduqları bildirilir. Deməli, Azərbaycandan İrana qarşı istifadə etmək haqqında söylənən fikirlər daha çox təbliğat xarakteri daşıyır. Bununla yanaşı, deyilənlər ABŞ-ın Cənubi Qafqaz siyasətinin maraqlı bir cəhətini də dərk etməyə imkan verir.

Yuxarıdakı təhlildən aydın olur ki, Amerika öz maraqlarını təmin etmək üçün Ermənistandan Rusiyaya, Azərbaycandan isə İrana qarşı istifadə etmək niyyətindədir. Ermənistandan suverenlik və təhlükəsizliyi təmin etmək, Azərbaycandan isə radikal dini təsirdən qorunmaq və sabitliyi təmin etmək bəhanəsi ilə istifadə edilməyə çalışılacaq. Ermənistanla vəziyyət aydındır: onlar özlərinə yeni, daha güclü ağa axtarışındadırlar. Azərbaycanla isə bu cür hoqqalar keçməz. İstənilən gücün Azərbaycanı İranla pis etmək cəhdi boşa çıxacaq.

Digər tərəfdən, Dağlıq Qarabağ münaqişəsi kontekstində Vaşinqtonun Cənubi Qafqaz siyasətinin ciddi bir qüsuru meydana çıxır (əgər "Stratfor" həqiqəti ifadə edirsə). Çünki Ermənistan təcavüzkar dövlətdir və Azərbaycanın ərazisinin 20 faizini havadarlarının yardımı ilə işğalda saxlayır. Belə bir ölkəni öz qanadı altına çəkib, ona demokratik don geydirməyə çalışmaq həmsədr dövlət kimi Amerikaya nə dərəcədə uyğundur? Bununla Vaşinqton təcavüzkarı daha da gücləndirib, onun aqressivliyinə haqq qazandırmırmı?

Əlbəttə, qazandırır. Üstəlik, regiondakı münaqişələrin həllini daha çətin vəziyyətə salır. Çünki faktiki olaraq regionda yeni bir gərginliyin əsasını qoyur. Belə bir şəraitdə nə Rusiya, nə də İran münaqişələrin həllində maraqlı ola bilməzlər. Onlar öz rəqibləri olan Amerikaya qarşı fəaliyyətlərini gücləndirməyə çalışacaqlar. O cümlədən münaqişə zonalarında təxribatlara getmələri də istisna deyil.

Bunlar onu təsdiq edir ki, "Stratfor"un təqdimatında ABŞ-ın 2019-cu ildə Cənubi Qafqazla bağlı nəzərdə tutduğu siyasi kurs real olaraq regionu yeni gərginlik dalğası üzərinə ata bilər. Vaşinqton öz liderliyini təmin etmək üçün Cənubi Qafqaz ölkələrini növbəti ixtilaflar girdabına sürükləyər. Burada onun başlıca rəqibləri kimi Rusiya və İran çıxış edir. Deməli, regionun iki böyük dövləti faktiki olaraq Cənubi Qafqazda ABŞ-la savaşmalı olacaq. Bu savaş müharibənin bütün üsullarını özündə ehtiva edə bilər.

Amerikanın Cənubi Qafqaz siyasətində müsbətə doğru hansısa real dəyişiklik etmək fikrində olmadığı yuxarıdakı müddəalardan və proqnozlardan aydın görünür. "Stratfor"un analitik hesabatında münaqişələrin həlli perspektivindən qətiyyən söz açılmır. Bu o deməkdir ki, 2019-cu ildə də Qərb regiondakı münaqişələrin həll oluna biləcəyini proqnozlaşdırmır. Onun əsas məqsədi Cənubi Qafqazdan Rusiyanı sıxışdırıb çıxarmaqdır. Bundan sonra Qərb ikili standartlardan imtina edib münaqişələri ədalətli həll etməyə çalışacaqmı?

Heç inandırıcı deyil. Çünki Amerikanın bugünkü fəaliyyət üsulu ədalətli mövqedən çox uzaqdır. Onun sonradan dəyişmək kimi bir qayğısı da yoxdur. Bu qənaət belə bir fikri təsdiqləyir ki, Amerika Cənubi Qafqazda hegemon qüvvə olsa, regionda heç də daha yaxşı geosiyasi mənzərə yaranmayacaq. İraq və Suriyada Vaşinqtonun kimləri dəstəklədiyini xatırlamaq kifayətdir.

Əgər "Stratfor" olacaqları indidən vurğulayırsa, onda Cənubi Qafqazda sadəcə köhnə problemlər yeniləri ilə əvəz ediləcək. Həmin problemlərin geosiyasi və hərbi mahiyyəti indidən qeyri-müəyyən olduğuna görə, vəziyyət daha da qəlizləşəcək. Yəni region dövlətləri üçün yeni bir çətin teorem yaradılır.

***Newtimes.az***

## Truskavets şəhərinin meri SƏS Media Qrupu ilə müqavilə imzaladı



Dünən Ukraynanın Truskavets şəhərinin meri Andrey Kulçinski Azərbaycana səfəri çərçivəsində “Səs” qəzetinin redaksiyasında olub. SİA-nın verdiyi məlumata görə, “SƏS” Media Qrupun rəhbəri Bəhruz Quliyevlə görüşən mer səmimi qəbula görə ona təşəkkürünü bildirib. Mer Baş redaktora Truskavets şəhəri, xüsusilə də sanatoriya-istirahət komplekslərinin turizm potensialı və imkanları barədə məlumat verib.

Andrey Kulçinski Azərbaycan və Ukrayna arasında əlaqələrin iqtisadiyyatın müxtəlif sahələrini əhatə etdiyini qeyd edib. Bildirib ki, Azərbaycanda Ukrayna şirkətləri uğurla fəaliyyət göstərir. Ölkələrimiz arasında ticarət dövriyyəsi artıb və bu sahədə əlaqələrin genişləndirilməsi üçün potensial böyükdür.

A.Kulçinski Truskavets şəhərindəki turistlərin sayının artması istiqamətindəki müsbət tendensiyaları qeyd edib. Bununla əlaqədar olaraq, o, Ukraynada və xüsusilə də, Truskavetsdə digər dövlətlərin vətəndaşlarının yaşamasının maksimum təhlükəsizliyinin təmin edilməsinə Ukrayna tərəfinin xüsusi diqqət ayırdığını bildirib.

“SƏS” Media Qrupun rəhbəri Bəhruz Quliyev isə dəvəti qəbul edib gəldiyinə görə, Truskavets şəhərinin merinə dərin minnətdarlığını bildirib və Azərbaycanla Ukrayna, xüsusilə də iki ölkənin media qurumları, o cümlədən media ilə ayrı-ayrı qurumlar arasındakı əlaqələrdən danışıb. “SƏS” Media Qrupun rəhbəri davamlı və səmərəli əməkdaşlığa ümid bəslədiyini bildirib. Azərbaycandan, dövlətimizin qısa müddətdə qazandığı uğurlardan söz açan B.Quliyev Azərbaycanda mətbuat azadlığının yüksək səviyyədə olduğunu və qanunvericilik səviyyəsində təmin edildiyini diqqətə çatdırıb.

Azərbaycanda hazırda 200-dən çox qəzetin, 100-ə yaxın jurnalın, 50-dən çox televiziya və radio kanalının, onlarla mətbuat yayımı şirkətinin və jurnalist təşkilatının fəaliyyət göstərdiyini xatırladan Bəhruz Quliyev, həmçinin qeyd edib ki, internetin sürətli inkişafı çoxsaylı informasiya resurslarının yaranmasına səbəb olub, ölkə əhalisi arasında internet yayımı 80 faizi keçir, sosial şəbəkə istifadəçilərinin sayı iki milyondan çoxdur.

Qurum rəhbəri deyib ki, yaxın qonşu və tarixi-mədəni yaxınlığa malik Ukrayna və Azərbaycanla bağlı həqiqətlərin dünya ictimaiyyətinə obyektiv çatdırılması son dərəcə vacibdir. Bu baxımdan həm Ukrayna, həm də Azərbaycan mətbuatının üzərinə böyük məsuliyyət düşür.

Daha sonra hər iki tərəfin iştirakı ilə qarşılıqlı birgə əməkdaşlığa dair müqavilə imzalanıb və xatirə şəkli çəkdirilib.

Qeyd edək ki, müqavilənin imzalanması ilə bağlı ilk razılıq “SƏS” Media Qrupun baş redaktoru Bəhruz Quliyevin rəhbərliyi ilə Azərbaycanın bir qrup media nümayəndələri və turizm sahəsində çalışan menecerlərin Ukraynaya səfərləri çərçivəsində Truskavets şəhərinin meri ilə görüşü zamanı əldə olunmuşdu.

## Rusiya və İran arasında turist vizaları ləğv ediləcək



Rusiya və İran arasında turist vizalarının ləğv edilməsi məsələsi müzakirə edilir. AZƏRTAC RİA Novosti agentliyinə istinadla xəbər verir ki, bu barədə İranın energetika naziri və Rusiya-İran hökumətlərarası komissiyasının həmsədri Reza Ardakaian məlumat verib. R. Ardakaian deyib: “Biz turist vizalarının ləğv edilməsi barədə razılığa gəlmişik. İndi yalnız bu məsələ ilə əlaqədar imzalanmış sənədlərin icrasını reqlamentləşdirmək lazımdır”. Həmin reqlamentin hazırlanması bir-iki ay davam edə bilər.

## Robert Koçaryan həbs edilə bilər

***Ermənistanın apellyasiya məhkəməsi sabiq prezident Robert Koçaryanın yenidən istintaqa göndərilən işinə baxıb. Vəkillər Koçaryanın toxunulmazlığı ilə əlaqədar onun barəsində həbs qəti imkan tədbirinin ləğvinə çalışsalar da buna nail ola bilməyiblər. AZƏRTAC erməni KİV-lərinə istinadla xəbər verir ki, Ermənistan baş prokurorluğu hesab edir ki, sabiq prezident Yerevanda 10 il əvvəl baş verən dövlət terrorunun ideya müəllifidir və təcili şəkildə azadlıqdan məhrum olunmalıdır.***



Robert Koçaryan “1 mart 2008-ci il” cinayət işi üzrə “konstitusiya quruluşunu dəyişmək, güclə hakimiyyəti ələ keçirməkdə” ittiham olunur. “Onun əmri əsasında aksiyanın onlarla dinc iştirakçısı öldürülüb. Buna görə də Robert Koçaryan həbsdə qalmalıdır”,- deyən Ermənistanın baş prokuroru Artur Davityan məlumat verib ki, apellyasiya məhkəməsi Robert Koçaryanın həbsdə qalması barədə prokurorluğun müraciətini nəzərdən keçirib. Qapalı proses zamanı hakim də sabiq prezindentin həbsdə saxlanmasının zəruri olduğunu qeyd edib.

Koçaryanın vəkili Ayk Alumyan bildirib ki, sabiq prezident bu ilin iyulunda 2008-ci il hadisələri ilə əlaqədar həbs olunsa da, apellyasiya şikayətindən sonra azad edilib. Bir müddət kassasiya məhkəməsi prokurorluğun şikayətini təmin edib və işi yenidən apellyasiya məhkəməsinə göndərib. Vəkillərin fikrincə, Koçaryanın həbsinə siyasi don geydirməyə çalışılır.

Baş prokurorluqdan bildirilib ki, 2008-ci il martın 1-i və 2-də prezident seçkilərinin nəticələrinin saxtalaşdırılması sayəsində Serj Sarkisyanın qələbəsini tanımayan minlərlə insanın iştirak etdiyi fasiləsiz etiraz aksiyalarının hakimiyyət qüvvələri tərəfindən dağıdılması nəticəsində rəsmi məlumatlara görə 10 nəfər, o cümlədən 2 polis əməkdaşı ölüb, 200-dən çox insan xəsarət alıb. “Dövlət terrorunda əli olan Koçaryan-Sarkisyan qruplaşması hələ də azadlıqdadır. Onun yeri həbsxanadır”,- deyən “Əriklər ölkəsi” partiyasının sədri Zarui Postancyan hesab edir ki, Koçaryanı azad etmək böyük cinayətdir.

Postancyanın sözlərinə görə, Koçaryan 10 illik prezidentlik dövrünün ilk günündən ölkə qanunlarını pozub, seçkiləri saxtalaşdırıb, strateji mühüm obyektləri satıb. Belə bir insanın azad edilməsi, ona növbədənkənar parlament seçkiləri ərəfəsində siyasi proseslərə müdaxilə imkanı verilməsi deməkdir. Çünki, hələ də Koçaryan-Sarkisyan qruplaşması tam zərərsizləşdirilməyib.

## BSU-da TÜRKAP-ın təşkilatçılığı ilə görüş keçirilib




***Dünən Türk Dünyası Qadın Platformasının təşkilatçılığı ilə ölkəmizdə səfərdə olan türkdilli ölkələrin parlamentlərinin bir qrup qadın üzvləri ilə Yeni Azərbaycan Partiyası Qadınlar Şurası İdarə Heyətinin üzvlərinin görüşü keçirilib.***

Bakı Slavyan Universitetində keçirilən görüşdə qonaqlar əvvəlcə universitetin tələbələrinin təqdimatında türk və slavyan xalqlarının mədəniyyətini əks etdirən musiqili kompozisiyaları izləyiblər. Sonra görüş çay süfrəsi arxasında davam etdirilib. Görüşdə çıxış edən YAP Qadınlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü, BSU-nun rektoru, professor Nurlana Əliyeva Azərbaycanla türkdilli ölkələr arasında münasibətlərin dostluq və qardaşlıq prinsiplərinə əsaslandığını bildirib. “Əlaqələrin inkişafında vətəndaş cəmiyyətinin müxtəlif platformaları da vacib rol oynayır. Bu mənada, qadınların da təşəbbüskarlığı daim yüksək qiymətləndirilir” deyə YAP Qadınlar Şurasının sədri Azərbaycan və Türkiyə qadınlarının əməkdaşlıq əlaqələri ətrafındakı fikirlərini vurğulayarkən qeyd edib.

YAP Qadınlar Şurasının bir sıra ölkələrin siyasi partiyalarının qadın qolları ilə əməkdaşlıq etdiyini də xatırladan Nurlana Əliyeva, eyni zamanda, bildirib ki, bu baxımdan, Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının qadın qolları ilə əlaqələri, xüsusilə qeyd olunmalıdır. “Qloballaşan dünyada türkdilli ölkələr arasında münasibətlərin daha da güclənməsi vacibdir. Bu münasibətlərin güclənməsində türk dünyasının qadınları da böyük töhfələr vermək imkanında və iqtidarındadır” deyə Nurlana Əliyeva çıxışının sonunda vurğulayıb.

Görüşdə çıxış edən Türkiyə Böyük Millət Məclisinin AKP-dən olan millət vəkili, parlamentin Dilekçe komissiyası başkanı Mihrimah Belma Satır Azərbaycanla Türkiyənin münasibətlərinin “Bir millət, iki dövlət” fəlsəfəsinə əsaslandığını söyləyib. Onun sözlərinə görə, türk dünyasının qadınları arasında əlaqələrin güclənməsi zəruridir. Bu baxımdan, TÜRKAP platforması təqdirəlayiqdir.

TÜRKAP-ın rəhbəri İlhamə Novruzova, Şimali Kipr Parlamentinin millət vəkili Resmiyye Canaltay, Qırğızıstan parlamentinin üzvü Elvira Surabaldiyeva, YAP Qadınlar Şurası İdarə Heyətinin üzvləri-Hesablama Palatasının auditoru Mehriban Alışanova, Milli Məclisin deputatları Sədaqət Vəliyeva, Kamilə Əliyeva, Sevinc Hüseynova və digərləri də çıxış edərək, bu kimi görüşlərin əhəmiyyəti barədə fikirlərini bildiriblər və əməkdaşlığın davamlı olacağına əminliklərini ifadə ediblər.

***Rövşən NURƏDDİNOĞLU***

## “Azərbaycanla Gürcüstan arasında əlaqələr daha da möhkəm olacaq”

***“Ötən gün Gürcüstanda prezident seçkilərinin ikinci turu keçirildi. Həmin ikinci turda gürcü xalqının iradəsi ifadə olunaraq istədikləri namizədə səs veriblər və yeni prezident seçilib.***

Bu prezidentin seçilməsi o demək deyil ki, Azərbaycanla münasibətlərdə mənfi bir yenilik yaratsın. Çünki bu gün Azərbaycanla Gürcüstan bir-birinə çox inteqrasiya olunmuş ölkələrdir, eləcə də bir-biri ilə dostluq, əməkdaşlıq münasibətləri çox yüksək səviyyədədir”. Bunu SİA-ya açıqlamasında millət vəkili Azər Badamov deyib.

Onun sözlərinə görə, Gürcüstanla Azərbaycan arasında böyük iqtisadi layihələr həyata keçirilir: “Təbii ki, həmin iqtisadi layihələr də bir-birini daha sıx birləşdirir. Bu gün Gürcüstanda kimin prezident olmasının bizim üçün əhəmiyyəti yoxdur. Çünki bugünkü Azərbaycan-Gürcüstan arasındakı əlaqələrə xələl gətirə biləcək hər hansı bir maneə yoxdur. Ona görə də düşünürəm ki, yeni prezident seçilməsindən sonra da Azərbaycanla Gürcüstan arasında əlaqələr daha da möhkəm olacaq və inkişaf edəcəkdir”.

Qeyd edək ki, Gürcüstan Mərkəzi Seçki Komissiyası noyabrın 28-də keçirilmiş prezident seçkilərinin ikinci turundan sonra bülletenlərin 98,76 faizinin nəticələrini açıqlayıb. 3705 məntəqədən 3659-nun nəticələri artıq bəllidir. İlkin rəsmi məlumatlara əsasən seçki dairələrinin böyük əksəriyyətində hakim “Gürcü arzusu” partiyasının dəstəklədiyi müstəqil namizəd Salome Zurabişvili qalib gəlib. Konstitusiyaya uyğun olaraq S.Zurabişvilinin andiçmə mərasimi dekabrın 16-da olacaq.

***Avropada yaşayan “siyasi mühacirlər” Məhəmməd Mirzəli və Tural Sadıqlının bir-birini ifşa etməsi gözlənilən hadisədir. Vətən təəssübkeşliyindən dəm vuran dırnaqarası vətənpərvərlərin simasının, daha doğrusu, simasızlığının üzə çıxmasında qeyri-adi heç nə yoxdur. Qeyri-adi yeganə ələmət bir satqının digərini satqınlıqda qınaması və günahlandırmasıdır. Necə deyərlər, kor-kora kor deməsə, bağrı çatlar.***



# Mühacirlərin qrant rüsvayçılığı

## Maskalar cırılır

İctimaiyyətə bəlli idi ki, bu mühacirləri birləşdirən heç də demokratiya, azadlıq, insan haqları, xalq-millət təəssübkeşliyi kimi ali məqamlar deyil və yalnız vətənə xəyanət müqabilində aldıqları paya görə bir araya gəlirdilər. İndi pay bölgüsündə yaranan narazılıq məsələnin tam çılpaq şəkildə üzə çıxmasına şərait yaradıb və bir-birlərini rüsvay etmələri də onlara məxsus reallıqlardır. Qarşılarına Azərbaycan dövləti əleyhinə kampaniya aparmaq tapşırığı qoyulanlar və bunun müqabilində maddi vəsaitlərlə satqınlığa sövq edilənlər pul ala bilməyəndə, simasızlıqlarını ortaya qoymaqdan, ictimailəşdirməkdən belə çəkinmirlərsə, bu rüsvayçılıqdır. Adı da mühacir rüsvayçılığı.

### Vətən əleyhinə fəaliyyət göstərirlərsə, onların bir adı var, xain, özü də vətən xaini

“Made in Azerbaijan” səhifəsinin admini Mirzəli Məhəmməd Sadıqlı Turalı aldığı puldan, qrantdan ona vermədiyinə görə rüsvay etmək qərarına gəlib və bunu sosial şəbəkələr vasitəsilə ictimailəşdirməyə başlayıb. Əslində isə, təkcə Turalın yox, bütövlükdə siyasi mühacirlərin çox acınacaqlı və rüsvayçı vəziyyətlərini ifşa edib. İfşa edib və bununla da, təsdiq edib ki, bəli, siyasi mühacir Azərbaycan əleyhinə çalışan, düşmən mövqedə olan qüvvələrin vəsaitləri müqabilində öz xalqını, ölkəsini və vətənini satır. Ən gülünc olan məqam isə ondan ibarətdir ki, Tural öz “əqidədaşına” aldığı puldan vermədiyi üçün Məhəmməd ona qarşı çıxıb və onu ittiham etməyə başlayıb. Belə çıxır ki, Sadıxlı vətənə xəyanət müqabilində aldıqlarından ona da versəydi, yaxud “ədalətli bölgü” aparsaydı, heç də ittihama layiq hesab olunmazdı.

Görəsən, bu Mirzəlilər dərk etmirlərmi ki, məsələnin mahiyyəti pulun bölgüsündə yox, xəyanətin etirafındadır? Dərk etmirlərmi ki, Məhəmməd, Tural, yaxud Orduxan və ya başqası, kim olur-olsun, pulu “ədalətlə” bölüb-bölməməsindən asılı olmayaraq, vətən əleyhinə fəaliyyət göstərirlərsə, onların bir adı var, xain. Özü də vətən xaini. Orduxan, Məhəmməd və Tural üçlüyünün timsalında siyasi mühacir öz vətənini satırsa, əvəzində pul alırsa-almırsa, aldığını bölüşdürürsə, yaxud bölüşdürmürsə belə, bu xəyanətdir və onlar bunun fərqindədirlərmi?

### “Dostunu, yoldaşını göstər, sənin kim olduğunu deyim” aforizmi Tural və Məhəmmədin timsalında əcəb yerinə düşür

Digər bir maraqlı məqam da odur ki, Mirzəli əqidədaşı Turalın qardaşının narkotiklə bağlı həbsi barədə də məlumat verir. Hətta onun Bakıdakı fəaliyyəti barədə danışmaqla onu təhdid də edir. Hədə-qorxu gəlir ki, bu barədə danışsa, Tural Sadıqlı batar. Bununla ürəyi soyumayan Məhəmməd Turalın Almaniyada etdiklərini də ona xatırladaraq, bunu sonrakı mərhələyə saxlamaqla, ona meydan oxuyur.

Doğrudur, T.Sadıqlının kim olduğu, nə yuvanın quşu olduğu bəllidir. Övladına sahib çıxmayan, ailəsinin dağılmasına, bir insanın isə ölümünə səbəb olan “ədalət çarcısı” barədə, onun kimliyi haqda uzun-uzadı danışmağa da dəyməz. Sadıqlı tərəfindən dəfələrlə döyüldüyü və xəstəxanaya düşdüyü səbəbdən 4 aylıq hamilə olmasına rağmən boşanmaq məcburiyyətində qalan qadına laqeydlik nümayiş etdirən mühacirin vətən qayğıkeşliyi çox absurd səslənir və kimliyi də bəlli olur.

Maraqlıdır, Məhəmməd bütün bunları Tural ona puldan pay ayırmadığı zaman xəbərdar olub, yoxsa, elə o zaman ağlı başına gəlib. Axı bütün bunları, Turalın necə adam olduğunu o əvvəlcədən də bilirdi. Sual oluna bilər, ay Mirzəli Məhəmməd, bu Tural belə yaramazın, yararsızın və sair biri idisə, bəs niyə onunla belə dosluq və yoldaşlıq edirdin? Əgər bir insanın Bakıdakı fəaliyyəti onun “batması” üçün kifayət edirdisə, bəs niyə onunla, yəni batmaq təhlükəsində olan biri ilə əqidə yoldaşlığı, əqidədaşlıq edirdin? Yox, əgər sən bunu bilə-bilə yoldaşlıq, əqidədaşlıq qərarına gəlmişdinsə, sənin ondan fərqin nədir? “Dostunu, yoldaşını göstər, sənin kim olduğunu deyim” aforizmi Tural və Məhəmmədin timsalında əcəb yerinə düşür.

### Ağası gülüm olanın, başına külüm olar

Pul müqabilində Vətəninə, xalqına, dövlətinə və millətinə qarşı çıxan bu dəstə üzvlərinin özbaşına hərəkət etmədikləri artıq özləri tərəfindən etiraf edilir. Azərbaycanın uğurlarını həzm edə bilməyən qüvvələrin, xüsusən də erməni diaspor təşkilatlarının, həmçinin ölkəmizə siyasi təzyiq göstərmək istəyən dövlətlərin əlində maşa rolunu oynadıqlarını özləri belə danmırlar.

Məhəmməd Mirzəli əqidədaşı, daha doğrusu, əqidəsiz daşı Tural Sadıqlı haqda sosial şəbəkədə “sən “xalqın layihəsini də qrant” üçün etdin” deyirsə, bu, həmin mühacirlərin kimliyi və hansı əqidəyə qulluq etdikləri haqda qənaətə gəlmək üçün yetərlidir. Avropada söyüş kampaniyasına start verənlərin bunu Vətəni sevdiklərinə görə yox, ağalarından aldıqları qrantlara görə etdikləri yuxarıda qeyd etdiyimiz faktdan sonra öz təsdiqini tapır. “Xalqın layihəsi” adı altında pullara göz dikənlərin ərbablarının büdcəsinə göz dikməsi zərrə qədər şübhə doğura bilməz.

Ərbablar da kim ola bilər, Azərbaycanın düşmənlərindən başqa? Ölkəmizin uğurlarını gözü götürməyənlərdən başqa, bu satqınları muzdlu xəyanətkara çevirən kim ola bilər? Maliyyə mənbələrinin ermənipərəst qüvvələrdən tutmuş, erməni lobbisinə qədər bu sifarişçilər içərisində olmadığına kim zəmanət verə bilər?

Düşmənlərimizin maliyyələşdirdiyi “küçə qəhrəmanları” elə əvvəldən, bu düşmən qüvvələrin toruna düşdüyü zaman özlərini gülünc, rüsvayçı günə qoymuşdular və bu gün o rüsvayçılıq tam çılpaqlığı ilə ictimailəşdirilir. Xəyanətkarın, düşmənə satılanın axırı nə ola bilər? “Ağası gülüm olanın, başına külüm olar” aforizminin indi əcəb yeri var.

***İnam HACIYEV***

---

# “Emissarları maliyyələşdirənləri ifşa etməliyik”

***“Xaricdə bir qrup emissarlar var ki, onlar ölkəmizin əleyhinə çıxış edir, qarayaxma kampaniyası aparmağa cəhd edirlər. Çünki, ölkə daxilində Azərbaycanın əleyhinə danışmaqla qanunlar qarşısında cavab verməlidirlər”.***

Bu fikirləri SİA-ya açıqlamasında “Olaylar” qəzetinin baş redaktoru Yunus Oğuz deyib. O bildirib ki, artıq Azərbaycan dövləti ölkəmizə bu məqsədlərlə göndərilən pulların qarşını alıb: “Belə olan halda, donor təşkilatlar vasitəsilə emisarlar maliyyə əldə etmək üçün xarici ölkələrə göndərilərək Azərbaycanın əleyhinə çıxış etmək missiyasını həyata keçirirlər. Təəssüf ki, xaricdə ölkəmizə qarşı fəaliyyət göstərən şəbəkə onlara qrant ayıranların adlarını çəkmirlər. Onların arasında erməni donorlarının olacağı istisna edilmir”.



Y.Oğuz söyləyib ki, bütün bunlara baxmayaraq, şəbəkə arasında olan pul davası onların iç üzünü aşkara çıxarmış oldu: “Çünki, emissarlara buradan göndərilən deyilmişdi ki, siz yaxşı pul alacaqsınız bizə də göndərərsiniz. Amma onlar bu məsələdə də bir-birilərinə kələk gələrək, nəticə etibarı ifşa oldular”.

Baş redaktor söyləyib ki, indiyədək sözügedən şəbəkənin müəyyən dairələrin maliyyəsi əsasında fəaliyyət göstərməsi haqqında dəfələrlə fikirlər səslənməsinə baxmayaraq, onlar buna etiraz edib, şər atıldığını bildirirdilər: “Nəhayət öz dilləri ilə etiraf etdilər ki, Azərbaycan əleyhinə fəaliyyətin arxasında Bakıda oturub onlara informasiya ötürən donorlar dayanır və onlar məhz həmin donorların istəyini yerinə yetirirlər. Onların dini, inamı həmin pulların üzərində qurulduğu üçün, maliyyə davası nəticə etibarı ilə iç üzlər aşkara çıxdı”. Y.Oğuz qeyd edib ki, onlar Azərbaycanı satmaq naminə də olsa, hətta “təkədən pendir tutub” onu satarlar: “Belə şəxslər üçün Azərbaycan yoxdur, sadəcə ortada maliyyə marağı var. Bu maraq əlbəttə ki, donorlardadır. Bu baxımdan düşünürəm ki, Bakıda oturub donorluq fəaliyyəti ilə məşğul olanlar ifşa olunmalıdır. Buradan kimlərin onlarla əlaqə saxladığını müəyyənləşdirməli, ölkəmizə qarşı kimlərin fəaliyyətdə olduğunu aşkara çıxarmalıyıq”.

---

## Narkotik satan şəxs tutuldu

***Cəlilabad Rayon Polis Şöbəsinə müraciət edən bir nəfər 13 qrama yaxın heroini könüllü olaraq polis əməkdaşlarına təqdim edib. DİN Mətbuat Xidmətindən SİA-ya verilən məlumata görə, aparılan araşdırmalarla həmin narkotik vasitəni satan şəxs polis əməkdaşları tərəfindən müəyyən edilib.***

Keçirilmiş əməliyyat tədbirləri nəticəsində narkotik vasitəni satmaqda şübhəli bilinən şəhər sakini, əvvəllər məhkum olunmuş Tahir Mirzəyev Cəlilabad RPŞ-nin əməkdaşları tərəfindən saxlanılıb. Araşdırma aparılır.



# Azərbaycan diasporunun coğrafi məkanı genişlənir

***Dünya ölkələrində formalaşmış şəkildə fəaliyyət göstərən Azərbaycan diasporu müstəqil dövlətimizlə əlaqələrini daha da möhkəmləndirib. Bu, ölkəmizdə həyata keçirilən uğurlu dövlət siyasətinin məntiqi nəticəsidir.***




Bu gün Azərbaycan diasporu ABŞ, Fransa, Misir, Avstraliya, Gürcüstan, Moldova, Avstriya, İslandiya, Niderland, Almaniya, İspaniya, Norveç, Belarus, İsveç, Özbəkistan, Belçika, İsrail, Polşa, Birləşmiş Ərəb Əmirliyi, İsveçrə, Qazaxıstan və İtaliya kimi onlarla dövlətlərdə fəaliyyət göstərir. Belə ki, dünya ölkələrində "Azərbaycan Evi" Cəmiyyəti, Azərbaycan Fransız Gənclik Assosiasiyası, Azərbaycan Kültür Mərkəzi, Azərbaycanlı Tələbələr Assosiasiyası, Fransa-Azərbaycan Mədəni Əlaqələr Assosiasiyası, Avstraliyada Avstraliya-Azərbaycan-Türk Dostluq Birliyi, Azərbaycanlıların İsveçrədəki Mədəniyyət Mərkəzi, Azərbaycan-İsveçrə Türk Cəmiyyəti, İsveçrə Azərbaycan Türkləri Kültür Dərnəyi, İsveçrə-Azərbaycan Dərnəyi, Azərbaycan Türk Kültür Dərnəyi, Azərbaycan-İsveçrə Əməkdaşlıq Cəmiyyəti, İsveçrədə Azərbaycanın Demokratik Tələbə və Gənclər Birliyi, Vaşinqton-Azərbaycan Mədəniyyət Mərkəzi, Amerika-Azərbaycan Ticarət Palatası, Hyuston Azərbaycanlıları Cəmiyyəti, Amerika-Azərbaycan Şurası, Qafqaz Yəhudiləri Cəmiyyəti və onlarla belə qurumlar dünya ictimaiyyətinə Azərbaycan həqiqətlərini çatdırmaqda əhəmiyyətli rola malikdir. Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, xarici ölkələrdə fəaliyyət göstərən diaspor təşkilatlarının təbliğat sahəsində fəaliyyətinin daha da gücləndirilməsi, Ermənistanın Azərbaycana təcavüzü ilə bağlı beynəlxalq aləmin məlumatlandırılması və bu faktın dünya dövlətlərinin parlamentlərinin, siyasi dairələrinin müzakirəsinə çıxarılması ilə bağlı görülən faktlar da kifayət qədərdir. Real faktlara söykənərək, deyə bilərik ki, Türkiyənin Ankara şəhərində Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyasının Qurultayı, "20 Yanvar" faciəsinin ildönümü, Xocalı soyqırımının ildönümü, 31 Mart Azərbaycanlıların Soyqırımı Günü, İslam Konfransı Təşkilatının (İKT) üzvü olan Dialoq və Əməkdaşlıq Uğrunda İslam Konfransı Gənclər Forumunun Mədəniyyətlərarası Dialoq üzrə Baş Koordinatoru Leyla Əliyevanın təşəbbüsü ilə 2008-ci ilin may ayında elan edilmiş "Xocalıya Ədalət" beynəlxalq məlumat və təşviqat kampaniyası çərçivəsində dünyanın bir çox ölkələrində etiraz aksiyaları, elmi-praktik konfranslar və digər tədbirlər həyata keçirilmişdir.

Xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirilməkdədir. Elə bu yaxınlarda ABŞ-da daha bir diaspor təşkilatı "Azərbaycan Minnesota Cəmiyyəti" yaradılıb və cəmiyyət ABŞ qanunlarına əsasən, rəsmi qeydiyyatdan keçib. 200-ə yaxın azərbaycanlı ailənin yaşadığı Ştatda azərbaycanlı tələbələr də təhsil alır. Əsasən, Novruz Bayramını birlikdə qeyd edən soydaşlarımız Amerikada adət-ənənələrimizi yaşatmağa çalışırlar. Məqsəd bu ölkədə doğulub-böyüyən azərbaycanlılara milli-mədəni dəyərlərlə bağlı məlumatların verilməsidir.

Bu günlərdə isə Nyu-Yorkda Amerika Azərbaycanlılarının Koordinasiya Şurası təsis edilib. Diasporla İş üzrə Dövlət Komitəsinin nümayəndə heyəti ABŞ-a səfəri çərçivəsində Nyu-Yorkda Amerika Azərbaycanlılarının Koordinasiya Şurasının təsis yığıncağında da iştirak edib. Təsis yığıncağında Azərbaycanın ABŞ-dakı səfiri Elin Süleymanov, BMT yanında daimi nümayəndə Yaşar Əliyev, 60-dan çox diaspor nümayəndəsi və rəhbəri iştirak edib. Qeyd olunub ki, xaricdə yaşayan soydaşlarımıza diqqət və qayğı göstərilməsinin Azərbaycan dövlətinin siyasətində prioritet istiqamətlərdəndir. Son dövrlər diaspor sahəsində görülən işlər, soydaşlarımızın birgə fəaliyyəti haqqında razılaşmaların əldə edilməsi, koordinasiya şuraları və perspektivlər barədə məlumat verilib.

Soydaşlarımızın fikir və təkliflərinin nəzərə alınacağını bildirən Diasporla İş üzrə Dövlət Komitəsinin rəhbəri qarşıya qoyulan məsələlərin həll edilməsi üçün koordinasiyalı fəaliyyətin vacib olduğunu qeyd edib. Yalnız bir ölkədə, bir qitədə deyil, bütün dünyada soydaşlarımızın müəyyən bir şəbəkələşməsinin zəruriliyi vurğulanıb. Bu gün ölkəmizdə xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirilməkdədir. İndiyədək əldə olunan təcrübə diaspor təşkilatlarımızın daha yetkin və nəzərəçarpacaq fəaliyyət göstərmələrinə imkan verir. Bu da, öz növbəsində, Diasporla İş üzrə Dövlət Komitəsinin qarşısında mühüm vəzifələr qoyur. Müasir dövrdə diaspor quruculuğu konkret zamanla məhdudlaşmayan, daimi fəallıq və zəhmət tələb edən uzunmüddətli prosesdir. Xaricdəki Azərbaycan diasporunun imkanlarından geniş surətdə istifadə olunması, ölkə həyatının müxtəlif sahələrində meydana çıxan problemlərin həllində onun fəal iştirakının gerçəkləşdirilməsi yolunda mühüm işlər görülür. Prezident İlham Əliyevin bu sahədə ardıcıl və qətiyyətli, məqsədyönlü və prinsipial siyasət aparması, deməyə əsas verir ki, Azərbaycan diasporu güclənib, doğma Vətənin taleyüklü problemlərinin həllində yaxından iştirak edir. Bu gün dünya ölkələrində olan Azərbaycan diaspora təşkilatlarının sayı 500-ə yaxındır.

Dünya azərbaycanlılarının əsas sosial-siyasi və milli-mənəvi vəzifələrindən biri yeganə müstəqil Azərbaycan dövlətini, hər hansı halda, müdafiə edib qorumaqdan və onun lideri ətrafında sıx birləşməkdən ibarətdir.

**ZÜMRÜD BAYRAMOVA**

## Bəhruz Quliyev: "Azərbaycanın regional siyasətində Gürcüstanın xüsusi yeri var"



"Qonşu dövlət kimi Gürcüstanda baş verən hadisələr Azərbaycanın marağındadır. Çünki, regionda müxtəlif iri miqyaslı beynəlxalq layihələrin həyata keçirilməsində Gürcüstan Azərbaycanın strateji tərəfdaşıdır". Bu fikirləri SİA-ya açıqlamasında "SƏS" Media Qrupun rəhbəri, siyasi ekspert Bəhruz Quliyev deyib.

Qonşu ölkələrdə baş verən proseslərin, demokratik dəyişikliklərin Azərbaycanın diqqətində olduğunu deyən siyasi ekspert söyləyib ki, xüsusilə də Gürcüstanda keçirilən prezident seçkiləri iki ölkə arasında mövcud olan hərtərəfli əlaqələrin davamlılığı baxımından mühüm əhəmiyyət kəsb edir: "Təbii ki, hakimiyyətə gələn şəxs istənilən halda xarici siyasətdə dəyişiklik etmək istəyində olur. Hesab edirəm ki, gürcü xalqının iradəsi ilə seçilən Salome Zurabişvili də iki ölkə arasında münasibətlərdə yeni inkişaf hədəflərini müəyyənləşdirə bilər".

B.Quliyev söyləyib ki, güclü iqtisadiyyata malik olan Azərbaycan hər zaman Gürcüstana kömək göstərən ölkələr sırasında birinci olub: "Azərbaycan bu gün də faktiki olaraq Gürcüstana ən çox investisiya yatıran ölkələrdəndir".

Ekspert vurğulayıb ki, qonşu ölkədə keçirilən prezident seçkilərində Salome Zurabişvilinin seçilməsi qərbyönümlü siyasətin davamıdır: "Bildiyiniz kimi Zurabişvili Saakaşvilinin hakimiyyəti dövründə Gürcüstanın xarici işlər naziri vəzifəsində çalışıb. Belə olan halda, onun indiyə qədərki fəaliyyəti Azərbaycanla Gürcüstan arasında mövcud olan strateji tərəfdaşlığın yüksələn xətlə inkişaf etməsinə imkan verir. Bundan başqa yeni seçilən prezident diplomatdır və o, uzun müddət Fransada diplomat kimi fəaliyyət göstərib. Onun beynəlxalq siyasətdə manevrləri də qonşuluq siyasətində düzgün mövqe tutmağa imkan verə bilər".

Azərbaycan və gürcü xalqlarının dostluğunun çox böyük tarixi əsaslara söykəndiyini qeyd edən B.Quliyev deyib ki, hər iki xalq bu dostluğu əsrlər boyu möhkəmləndirərək yaxşı və pis günlərdə bir-birinin yanında olub, bir-birini dəstəkləyib: "Münasibətlərimiz inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Azərbaycanın regional siyasətində Gürcüstanın xüsusi yeri var. Ölkəmiz hər zaman öz müttəfiqinə qarşı daim sağlam mövqe tutmaqla yanaşı, qonşu ölkənin inkişafına öz töhfəsini verməkdədir. Hesab edirəm ki, yeni seçilən prezident iki ölkə arasında qonşuluq əlaqələrini yenidən gözdən keçirəcək. Düşünürəm ki, Salome Zurabişvili qərbyönümlü siyasət həyata keçirməsindən asılı olmayaraq, iki ölkə arasında münasibətləri tarix köklərə söykənərək, Azərbaycanın regionda tutduğu mövqeyini nəzərə alaraq iki ölkə arasında münasibətlərin keyfiyyətcə yeni mərhələyə qədəm qoymasına öz töhfəsini vermiş olacaqdır".

## Gürcüstanda 10 faiz səs həddini keçmiş prezidentliyə namizədlər bir milyon lari alacaqlar



Noyabrın 28-də Gürcüstanda keçirilmiş prezident seçkilərinin ikinci turunda qalib gəlmiş namizəd Salome Zurabişvili, "Milli Hərəkat" və "Avropa Gürcüstanı" partiyalarının namizədlərinin hər biri dövlət büdcəsindən 1 (bir) milyon lari (təqribən 370 min dollar) məbləğində vəsait alacaqlar.

AZƏRTAC xəbər verir ki, onlar bu pulu Gürcüstan Seçki Məcəlləsinin 54-cü maddəsinə əsasən əldə edəcəklər. Həmin maddəyə görə, prezident seçkilərinin birinci turunda 10 faiz səs həddini keçmiş hər bir müstəqil namizəd və seçici subyekti alır. Prezident seçkilərinin oktyabrın 28-də keçirilmiş birinci turunda müstəqil namizəd 38,64 faiz, "Vahid Milli Hərəkat" partiyasının namizədi Qriqol Vaşadze 27,74 faiz, "Avropa Gürcüstanı" partiyasının namizədi David Bakradze isə 10,97 faiz səs toplayıblar.

## Assosiasiya sədri: Bu il narın yığım və ixracında 20-25 faiz artım gözlənilir



Cari ildə nar və nardan emal edilən məhsulların istehsal və ixracında artım olacağı gözlənilir. AZƏRTAC xəbər verir ki, bu barədə jurnalistlərə müsahibəsində Nar İstehsalçıları və İxracatçıları Assosiasiyasının sədri Fərhad Qaraşov deyib. "Builki ixracla bağlı yekun göstəricilər gələn ilin fevral-mart aylarında məlum olacaq. Sentyabrın sonundan və oktyabrın əvvəllərindən nar yığımına başlanılarsa ixrac prosesi fevral-mart aylarınadək davam edə bilər. Sahibkarlar və fermerlər öz məhsullarını soyuducularda saxlamaq şərtilə fevral-mart aylarına qədər ixrac edə bilərlər. Düşünürük ki, bu il həm yığım, həm də ixrac göstəriciləri 20-25 faiz artacaq", - deyə F.Qaraşov bildirib.

## Hava şəraiti kəskin dəyişəcək

Sinoptiklər ölkə ərazisində gözlənilən qeyri-sabit və əlverişsiz hava şəraiti ilə bağlı xəbərdarlıq ediblər. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a bildiriblər ki, hava şəraiti kəskin dəyişəcək.

Bakıda və Abşeron yarımadasında noyabrın 30-u axşamdan dekabrın 2-si gündüzədək Bakıda və Abşeron yarımadasında hava şəraitinin arabir yağıntılı olacağı, yarımadanın bəzi yerlərində intensivləşəcəyi gözlənilir. Güclü şimal-qərb küləyi noyabrın 29-dan 30-na keçən gecə arabir şiddətlənəcək.

Azərbaycanın rayonlarında noyabrın 30-dan dekabrın 2-si gündüzədək hava şəraitinin qeyri-sabit keçəcəyi, arabir yağış, dağlıq və dağətəyi rayonlarda qar yağacağı gözlənilir. Bəzi yerlərdə intensiv olacağı ehtimalı var. Çaylarda suluğun artacağı, Lənkəran-Astara bölgəsinin bəzi çaylarından qısamüddətli daşqın keçəcəyi ehtimal olunur.

# Azərbaycanın mədəniyyət nümunələri YUNESKO-nun nadir əsərləri sırasında

***"Dədə Qorqud irsi: Dastan mədəniyyəti, xalq nağılları və musiqisi" çoxmillətli mədəniyyət nümunəsi kimi YUNESKO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına, "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri" isə YUNESKO-nun Təcili Qorunma Siyahısına daxil edilməsi Azərbaycanın daha bir uğurudur.***

BMT-nin ixtisaslaşmış təşkilatı olan YUNESKO dünyanın təhsil, elm və mədəniyyət məsələləri sahəsindəki əməkdaşlığın ən böyük hökumətlərarası forumudur. YUNESKO irqindən, cinsindən, dilindən və dinindən asılı olmayaraq, bütün xalqlar üçün BMT-nin Nizamnaməsində elan edilmiş ədalətə, qanunçuluğa və insan hüquqlarına, habelə əsas azadlıqlara hamılıqla hörmətin təmin edilməsi naminə xalqların təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlığını genişləndirməklə sülh və






təhlükəsizliyin möhkəmləndirilməsinə yardım göstərməyi qarşısına vəzifə qoyub. Həmin dövrdən başlayaraq, bu günə qədər bura üzv olan dövlətlərin sayı artmışdır. Belə ki, hazırda 200-ə yaxın dövlət YUNESKO-nun üzvüdür. Bu ölkələr sırasında Azərbaycanın da adı və yeri var.

Bu gün Azərbaycanla YUNESKO arasında əlaqələr davamlı şəkildə həyata keçirilir. Bu istiqamətdə Heydər Əliyev Fondunun apardığı məqsədyönlü fəaliyyətini xüsusi qeyd etməliyik. Azərbaycan maddi və mənəvi irsinin YUNESKO-nun nadir əsərləri sırasına daxil edilməsi beynəlxalq əməkdaşlığın əsas göstəricilərdir.

Cari ilin 26 noyabr - 1 dekabr tarixlərində Mavriki Respublikasının paytaxtı Port-Luis şəhərində YUNESKO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinin 13-cü sessiyasında "Dədə Qorqud irsi: Dastan mədəniyyəti, xalq nağılları və musiqisi" çoxmillətli mədəniyyət nümunəsi kimi YUNESKO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına, "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri"nin isə YUNESKO-nun Təcili Qorunma Siyahısına daxil edilməsi Azərbaycanla bu təşkilat arasında olan əməkdaşlığın davamlığını bir daha təsdiqləyir.

YUNESKO ilə əməkdaşlığın genişləndirilməsində və mədəni irsimizin qorunması və dünya miqyasında təbliğində əvəzsiz xidmətləri olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun Xoşməramlı Səfiri xanım Mehriban Əliyevanın dəstəyi ilə "Dədə Qorqud irsi: Dastan mədəniyyəti, xalq nağılları və musiqisi" adlı çoxmillətli mədəniyyət nümunəsi, kamança hazırlanması və ifaçılıq sənəti, dolma hazırlama və paylaşma ənənəsi, Azərbaycan muğam ifaçılığı, lavaş bişirmə və paylaşma ənənəsi, Lahıc misgərlik sənəti, aşıq sənəti, Novruz bayramı, xalça sənəti, tar ifaçılığı, kəlağayı sənəti UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısında, həmçinin Çovqan - ənənəvi Qarabağ atüstü oyunu və "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri"nin isə UNESCO-nun təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısında yer almışdır.

Azərbaycan mədəniyyəti növlərindən olan "Dədə Qorqud irsi: Dastan mədəniyyəti, xalq nağılları və musiqisi" çoxmillətli mədəniyyət nümunəsi kimi YUNESKO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına, "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri" isə YUNESKO-nun Təcili Qorunma Siyahısına daxil edilməsi qədim el sənətinə, mədəni irsimizə göstərilən qayğının bariz nümunəsidir.

Ölkəmizin mədəniyyət həyatında baş verən bu tarixi hadisə Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin milli-mənəvi dəyərlərimizin qorunmasına, ölkəmizin mədəniyyətinin inkişafına göstərdiyi yüksək dəstəyin və qayğının nəticəsidir. Hər bir xalqın ən böyük sərvəti onun milli-mənəvi dəyərləri, bu dəyərlərdən formalaşan adət-ənənələri, mədəniyyət nümunələridir. Belə dəyərləri özündə ehtiva edən xalq qapısını dünyaya açır və sivilizasiyaların qovuşduğu məkan olaraq, təbliğ etdiyi zəngin irsi ilə kimliyi və tarixi haqqında geniş təsəvvür yaradır.

Göründüyü kimi, bu gün Azərbaycan müasir həyatımızda dünyaya inteqrasiya etdiyi bir zamanda milli-mənəvi dəyərlərimiz, adət-ənənələrimiz diqqətə çəkilir, ona dövlət tərəfindən xüsusi diqqət və qayğı ayrılır. Bu münasibət Azərbaycanın dünyada imicinin daha da yüksəlməsinə təsirini göstərməkdədir. Azərbaycanın Birinci Xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun Xoşməramlı Səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın səyləri sayəsində bu istiqamətdə görülən işlər Azərbaycanın tarixi, onun minilliklərin kəsiyində yaşanılan reallıqları, inkişaf prosesi daha da geniş coğrafi məkanda vüsət almaqdadır.

**ZÜMRÜD BAYRAMOVA**



## Polşa səfiri BSU tələbələri qarşısında mühazirə oxuyub

Dünən Polşanın Azərbaycandakı fövqəladə və səlahəyyətli səfiri Marek Tsalka və və xanımı Malqozata Oldakonska Tsalka Bakı Slavyan Universitetində olublar. Qonaqları qəbul edən BSU rektoru, professor Nurlana Əliyeva Azərbaycan - Polşa əlaqələrini tarixindən, hazırkı vəziyyətindən və perspektivlərindən danışıb. O, BSU-da fəaliyyət göstərən Polşa Tədris-Mədəniyyət Mərkəzində gənclərin polyak dili, ədəbiyyatı və mədəniyyətinin tədrisi prosesi və əldə edilən uğurlar barədə qonaqlara məlumat verib. Görüş zamanı tələbə-müəllim mübadiləsi və bu sahədəki anlaşmalara da toxunulub. Səmimi qəbula görə təşəkkürünü bildirən polyak səfiri və xanımı Polşa ilə Azərbaycanın tarixən dost ölkələr olduğunu diqqətə çatdırıblar. Səfir Azərbaycan Respublikasının inkişaf tempinə və müasir dəyərlərə münasibətinə görə, hətta bir çox Avropa ölkələrini belə qabaqladığını deyib. O, əvvəllər də bir çox ölkələrdə səfir işlədiyini xatırladaraq, Azərbaycanda yaşayıb-işləməkdən məmnun qaldığını, burada özünü doğma evindəki kimi hiss etdiyini dilə gətirib.

Daha sonra səfir və xanımı Polşa Tədris və Mədəniyyət Mərkəzinin tələbələri qarşısında Polşa tarixi ilə bağlı geniş mühazirə ilə çıxış edib.

**ZÜMRÜD**

## "Azərbaycana çox böyük əhəmiyyət verilir"



"Azərbaycanın bugün nəinki Cənubi Qafqazda, bizim regionda, ümumilikdə bütün dünyada əlbəttə ki, nüfuzu gündən-günə artır. Azərbaycan regionun, dünyanın ən əhəmiyyətli bir ölkəsi kimi qəbul edilir". Bunu SİA-ya açıqlamasında millət vəkili Jalə Əliyeva deyib. Onun sözlərinə görə, bu gün çoxsaylı, yüksək səviyyəli görüşlər, səfərlər və bu səfərlər çərçivəsində imzalanan müqavilələrin hər biri onu göstərir ki, Azərbaycana çox böyük bir əhəmiyyət verilir: "Hər bir dünya ölkəsi Azərbaycanla əməkdaşlığa, strateji partnyorluğa can atırlar. Əlbəttə ki, bu Azərbaycanın durmadan inkişafda olan nailiyyətləri ilə bağlıdır. Hər bir ölkə Azərbaycanla tərəf müqabili olmaqla, eyni zamanda öz ölkəsinə dividentlər qazandırmağa çalışır. Yəni bu o deməkdir ki, Azərbaycan sadəcə iqtisadi baxımından deyil, həm də siyasi baxımından söz, nüfuz sahibidir. Azərbaycanla əməkdaşlıq etmək, birlikdə olmaq həmin ölkələrə də daha çox fayda gətirə biləcək. Bir amil kimi qiymətləndirilir. Azərbaycan Prezidentinin Orta Asiyaya, Türkmənistana, Qazaxıstana, Belarusiyaya səfəri uğurlu əməkdaşlıqla yadda qaldı. Çeçenistan Respublikasının prezidenti Ramzan Kadırovun da Azərbaycana yüksək səviyyəli səfərini yuxarıda sadaladığım amillərin nümayişi kimi qiymətləndirirdim".

## "Gürcüstanda istənilən hakimiyyət Azərbaycanla dinamik münasibətlər saxlamaqda maraqlı olacaq"



"Gürcüstanda keçirilən seçkilər azad, demokratik yolla keçirilib, nəticələr xalqın iradəsinin təzahürünün göstəricisi olduğundan buna hörmətlə yanaşılmalıdır". Bu fikirləri SİA-ya açıqlamasında beynəlxalq ekspert Tamerlan Vahabov deyib. O bildirib ki, Azərbaycanla Gürcüstan münasibətlərinin dinamikliyi tək şəxsiyyətlər üzərində deyil, ümumilikdə ölkələr arasında mövcuddur: "İki ölkə arasında strateji struktur və prosesual münasibətlər o qədər yüksəkdir ki, Gürcüstanda istənilən hakimiyyət dəyişikliyi bu dinamikanı saxlamaqda maraqlı olacaq. Bu da əlbəttə ki, prezident İlham Əliyevin həyata keçirdiyi uzaqgörən siyasətinin nəticəsidir. Ölkə başçısının uğurlu xarici siyasəti Azərbaycanın digər, xüsusilə də qonşu ölkələrlə münasibətlərdə özünün yüksək səviyyədə göstərməkdədir".

Gürcüstanda keçirilən prezident seçkiləri ilə bağlı hazırda 97 faiz bülletenlərin hesablandığını deyən ekspert söyləyib ki, növbəti hesablanmayan 3 faizin nəticələrə təsir etmə ehtimalının az olduğunu dilə gətirib: "Çünki, namizədlər arasında səs faizinə baxsaq fərqin yüksək olduğunu görmək mümkündür". T.Vahabov qeyd edib ki, son illər Gürcüstanda yaşayan Azərbaycan icmasının fəallığı artıb: "Bu da təbii ki, birbaşa olaraq onların tarixi vətəni olan Azərbaycan və iki ölkə istiqamətində aparılan xarici siyasətin nəticələrindən biridir. Belə olan halda, azərbaycanlılar orada özlərini müdafiə olunmuş, eləcə də ölkəmizin dəstəyini hər zaman hiss edirlər".

***Ermənistanda növbədənkənar parlament seçkiləri ərəfəsində baş verən qarşıdurmalar Nikol Paşinyanın mövqelərinin zəifləməsini aydın şəkildə göstərməkdədir. Belə ki, Paşinyan təkcə ölkə daxilində deyil, həm də xarici siyasətdə uğursuzluqlarla üz-üzədir. Çünki ritorikaya, populizmə, "küçə siyasəti"nə üstünlük verən Paşinyan heç bir islahat apara bilmədi, bir addım irəli gedə bilmədi. Bu gün demək olar ki, artıq ona verilmiş vaxt başa çatmaq üzrədir, dekabr seçkilərindən sonra baş nazir vəzifəsinə seçilsə belə, xalq Paşinyandan konkret addımlar tələb edəcək.***

# Seçki ərəfəsi oyunları...



O ki, qaldı ki, Paşinyanın xarici siyasətinə, bu haqda danışmağa da dəyməz. Paşinyan son yeddi ay ərzində bu istiqamətdə, nəinki hansısa uğura imza atıb, əksinə, qonşu və müttəfiq hesab edilən dövlətlərlə də münasibətləri kəskin şəkildə pisləşdirdi. Onun Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına yönəlmiş siyasəti, nizamnamədən kənar hərəkətləri, üzv dövlətlərin liderlərinə qarşı qeyri-etik davranışı Paşinyanın məğlub durumda olduğunu göstərdi.

## Ancaq "Küçə demokratı"ndan belə düşüncəsiz addımlar gözləmək olar

Ekspertlər ancaq "küçə demokratı"ndan belə düşüncəsiz addımların atılacağının mümkünlüyünü bildiriblər. Ermənistan parlamentinin vitse-spikeri, Respublika Partiyasının təmsilçisi Eduard Şarmazanov hesab edir ki, bu gün Ermənistan heç vaxt olmadığı qədər ciddi xarici və daxili problemlərlə üz-üzədir: "Bu şərtlərlə biz özümüzü passiv aparıb, "küçə demokratı" Paşinyanın ağılsız nöqsanlarına göz yuma bilmərik. Biz bu çətinliklərə qarşı çıxmaq üçün hər şeyi edəcəyik. Respublika Partiyası real müxalifət olmaq və ikinci bir qütb formalaşdırmaq üçün seçkilərdə iştirak edəcək. Ölkəmizə hakimiyyətin çatışmazlıqlarını və səhvlərini göstərən real müxalifət lazımdır".

Şarmazanov hesab edir ki, ötən aylar ərzində, bir sıra yalanların aşkarlanmasına şahidlik ediblər: "Paşinyanın vəd etdiyi sıçrayışlı inkişafın əvəzinə biz iqtisadi artımın enməsinə, investisiya göstəricilərinin 11 dəfə azalmasına, kameraların və qırmızı xətlərin aradan qaldırılması yerinə, kameraların artmasına və qırmızı xətlərin saxlanmasına şahidlik etdik. Yeni iş yerləri açmaq əvəzinə, onların ixtisara salınmasını gördük. Paşinyanın vəd etdiyi demokratik inkişafın əvəzinə, Milli Təhlükəsizlik Xidmətinin "düşünmək, sonra danışmaq" təhdidini aldıq. Milli və xristian dəyərlərini möhkəmləndirmək əvəzinə, biz bütün ermənilərin katolikosuna hücum, Şurnuhda homoseksualizmin təşviqini gördük. KTMT-də mövqelərimiz möhkəmlənmədi, əksinə, baş katib vəzifəsini itirdik. Paşinyan isə islahatlar aparmaq əvəzinə, indi də müəllimləri ixtisar etməyin anonsunu verib".

Göründüyü kimi, seçki ərəfəsində Paşinyanın bütün açıqlamaları, "islahat" hesab etdiyi iş yerlərini ixtisara salmaq planları, beynəlxalq siyasətdəki uğursuzluqları onun vəziyyətini daha da ağırlaşdırır.

## Paşinyan "sürprüzlər"lə üz-üzə

Qeyd edək ki, məhz Paşinyanın uğursuz siyasətinin nəticəsidir ki, seçkilərə kimi, sürprüzlərin bir-birini əvəz edəcəyi bəllidir. Belə ki, dekabrın 6-da Sankt-Peterburqda keçiriləcək KTMT üzv dövlətlərinin görüşündə çox böyük ehtimalla baş katib postunu da itirəcək. Bu isə Paşinyan üçün çox ağır zərbə olacaq.

Paşinyan üçün ikinci böyük zərbə isə Belarus nümayəndəsi, Bakı hərbi məktəbinin məzunu Stanislav Zasın baş katib vəzifəsinə təyin edilməsi ola bilər. Hətta bu şəxs olmasa belə, təşkilatda növbə Belarusundur. Prezident Lukaşenko isə hələ bir neçə gün əvvəl KTMT-nin baş katibi vəzifəsinə üç namizəd irəli sürə biləcəyini bildirmişdir. Beləliklə, təhdidə, siyasi ritorikaya, küçə leksikonuna üstünlük verən Paşinyanı qarşıda xoş olmayan "sürprizlər" gözləyir.

Siyasi ekspertlər bütün bu uğursuzluğun əsas səbəbini Paşinyanın işğalçılıq siyasətindən irəli gəldiyini vurğulayırlar.

## Elman Nəsirov: "Paşinyan işğalçılıq siyasətindən əl çəkməsə, onun aqibəti Sarkisyandan da pis olacaq"

"Ermənistanın bugünkü hakimiyyəti əvvəlki xunta rejminin siyasətini davam etdirir və bir çox hallarda çox ziddiyyətli və sərsəm bəyanatlar verir". Bu fikri söyləyən Milli Məclisin deputatı Elman Nəsirov onu da bildirib ki, Azərbaycan münaqişəni dinc yolla həll etmək istəyir, lakin gərək qarşı tərəf də adekvat olsun: "Bu gün Azərbaycan dünya xəritəsində bir uğur modelidir, nümunəsidir. Son 15 ildə bizim iqtisadiyyatımızda 3,2 dəfə artım var ki, bu da dünyada analoqu olmayan bir hadisədir. Ermənistanda isə bu gün yoxsulluq rəsmi 30 faiz, qeyri-rəsmi isə 50 faiz səviyyəsinə gəlib çatıb. Ermənistan rəhbərliyi bütün bunlardan nəticə çıxarmalı və siyasətinə düzəlişlər etməlidir. Əks halda, Paşinyanı, heç şübhəsiz ki, hakimiyyətdən uzaqlaşdırdığı Sarkisyanın taleyi gözləyə bilər".




E.Nəsirovun sözlərinə görə, N.Paşinyan hələ də dərk etməyib ki, özündən əvvəlki hakimiyyətlərin süqutunu şərtləndirən ən mühüm amil işğalçılıq siyasəti olub: "Paşinyan bu siyasətdən imtina ilə bağlı heç bir addım atmır. Deməli, Paşinyanın taleyini proqnozlaşdırmaq o qədər də çətin deyil. Onun aqibəti Sarkisyandan da pis ola bilər".

## Paşinyanın növbəti taktikası

Yaxşı deyib atalar: hayla gələn, vayla gedər. Politoloq Sahib Alıyev bildirib ki, Ermənistandakı hərbi xunta rejimini çevriliş yolu ilə dəyişərək hakimiyyətə gələn Nikol Paşinyanın istefa verməsinə baxmayaraq, o, hələlik, baş nazirlik səlahiyyətlərini icra edir: "Çoxları bunu Paşinyanın çıxılmaz durumda olması, vədlərinin heç birini yerinə yetirə bilməməsi kimi dəyərləndirir, onun hakimiyyətə yenidən qayıtması, öz imicini yenidən bərpa etməsi üçün əvvəlcədən hazırlanmış ssenari və oyun kimi qiymətləndirirlər. Əksər yerli və xarici ekspertlər hesab edirlər ki, bu qayıdış heç də Paşinyanın hesabladığı kimi olmaya bilər. Onu elə hakimiyyətə gətirənlər özləri birdəfəlik hakimiyyət və siyasət meydanından silə bilərlər".

Beləliklə, baş verənlər onu göstərir ki, Paşinyanın reytinqi birdən-birə necə qalxmışdısa, eyni sürətlə də düşəcək.

**A.SƏMƏDOVA**







# Mühacir qrant dəllalları iç üzlərini nümayiş etdirdilər

***Gözlənildiyi kimi, Avropadakı "söyüş qrupu"nun üzvləri arasında qarşıdurma yaranıb. Səbəb də, maliyyə vəsaiti ilə bağlıdır. Yəni ayrılan puldan birinə çox, digərinə az düşdüyündən, aralarında çaxnaşma yaranıb. "Söyüş qrupu"nun üzvlərindən olan və hər zaman Azərbaycana qarşı şər-böhtanları ilə sosial şəbəkələrdə tanınan Məhəmməd Mirzəli ilə Tural Sadıqlıya ayrılan qrantların bölüşdürülməsində qarşıdurmanın yaranması daha çox diqqəti cəlb edir. Söhbət etdiyimiz müsahiblərimiz məsələnin kökündə maddi maraqlar dayandığını və ayrılan maliyyə vəsaitini bölə bilməmələrinin tərəflər arasında problemlər yatdığını bildirdilər.***

## "Kaspi" qəzetinin baş redaktoru İlham Quliyev: "Artıq "mühacir"lər özləri-özlərini ifşa edirlər"

- Onları danışdıranların olması fakt idi, təbii ki, maliyyə vəsaiti qarşılığında. İndi isə, məlum olur ki, ayrılan qrantdan biri digərinə atıb. Bu da, tərəflər arasında qarşıdurma yaradıb. Bəlkə də artıq maliyyə kəsildiyi üçün aralarında narazılıqlar yaranıb və bunu açıq müstəvidə sosial şəbəkələrdə müzakirə edirlər. Bununla, onlar kimlərinsə ayırdığı vəsaitlər hesabına çalışdıqlarını



açıq şəkildə etiraf edirlər. İndi artıq "mühacir"lər özləri-özlərini ifşa edirlər. Qarşıdurma hələ ki, sosial şəbəkələr vasitəsi ilə birbirlərini sərt formada ittiham etmələri ilə müşayiət olunur. Vəziyyətin gərginləşəcəyi ehtimal olunur. Bu, bir daha göstərir ki, xarici antimilli şəbəkə "söyüş qrupu" adlandırılan ünsürlərdən bir vasitə kimi istifadə edirlər. Bəzi mühacirlərin qarşısında Azərbaycandakı ictimai-siyasi sabitliyi pozmaq, insanlar arasındakı münasibətləri gərginləşdirmək, milli mentalitetimizə zidd ifadələri siyasi arenaya gətirmək kimi tapşırıqlar qoyulub. Avropadakı "söyüş qrupu" xarici maraqlı dairələrin sorğu-sualsız və tərəddüdsüz olaraq tərtib etdikləri layihənin icraçısı idilər. Amma bu cür anormal yollarla və metodlarla Azərbaycandakı ictimai-siyasi proseslərə təsir etmək və burada gərginlik yaratmaq mümkün deyil. Ölkəmizdə xalq-iqtidar birliyi və möhkəm əsaslara söykənən sabitlik mövcuddur. Fakt budur ki, Azərbaycan ictimaiyyəti bu layihənin icrası başlayan zamandan buna sərt etirazını bildirdi. Bu gün də eyni mövqedədir.

## "Azadlıq Hərəkatçıları" Birliyinin sədri Təhmasib Novruzov: "Mühacirlər arasında bu cür davaların çox şahidi olacağıq"

- Məsələ burasındadır ki, bu gün dünyanın hər yerində erməni diasporası, erməni lobbisi hər vasitə ilə Azərbaycanı beynəlxalq aləmdə gözdən salmaq kampaniyası həyata keçirir. Çünki bütün sahələrdə siyasi-iqtisadi, bir sözlə bütün sahələrdə Azərbaycan inkişafa, tərəqqiyə nail olur, dünyada nüfuzu artır və mövqeləri möhkəmlənir. Bu baxımdan, erməni lobbisi sapı özümüzdən olan baltalar vasitəsi ilə Azərbaycan dövlətinin əldə etdiyi uğurlara kölgə salmağa çalışır. Bunun üçün erməni lobbisi külli miqdarda maliyyə vəsaiti xərcləyir. Bəzi sapı özümüzdən olan baltalar da həmin vəsaitdən mənimsəyir və ciblərini doldurub, Azərbaycana qarşı qarayaxma kampaniyasında iştirak edirlər. Burada da pul birinə az, birinə çox düşəndə, aralarında mübahisə düşür və qarşıdurma yaranır. Bunların savaşı nə milli savaş, nə də ki, xalq savaşıdır, yəni hər hansı bir amala, hansısa əqidəyə xidmət edən savaş deyil. Apardıqları savaş pul savaşıdır. Təəssüflər olsun ki, bu gün



dünyada belə bir biznes forması yaranıb, bunun da mərkəzində, məhz bəzi Avropa ölkələri dayanır. Beləliklə də, daha çox pul əldə etmək uğurunda aparılan savaş mühacirlər arasında düşmənçilik meyillərini artırıb. Yəni, o, olmasaydı, mən daha çox pul qazanardım", - fikri ortaya çıxdığından bunların arasında qarşıdurma yaranıb. Mühacirlər arasında hələ bu cür davaların çox şahidi olacağıq.

**GÜLYANƏ**

# "Nar"-dan eşitmə və nitq məhdudiyyətli insanlara növbəti dəstək




"Nar" korporativ sosial məsuliyyət (KSM) strategiyası çərçivəsində sosial aksiyalarını davam etdirir. Mobil operatorun növbəti layihəsi fiziki məhdudiyyətli insanlara dəstəkdir. Belə ki, "Nar" eşitmə və nitq məhdudiyyəti olan insanlarla ünsiyyət qurmağı asanlaşdırmaq, onların cəmiyyətə inteqrasiyasına kömək etmək məqsədilə "Səssiz dünyaya körpü" adlı kitabı nəşr etdirib. Kitab eşitmə və nitq məhdudiyyətli şəxslər, onların valideynləri və ailə üzvləri, gənclər, tələbələr və ümumiyyətlə, bu qrup insanlarla ünsiyyət qurmaq istəyən hər kəs üçün nəzərdə tutulub. "Eşitmə və Nitq Məhdudiyyətli Şəxslərə Sosial Yardım" İctimai Birliyinin dəstəyi ilə hazırlanan vəsait eşitmə və nitq məhdudiyyəti olan insanların işarət dilində olan sözlərini jestlərlə izah edəcək. Məlumat xarakterli vəsait sayəsində ailəsində bu cür fiziki məhdudiyyəti olan insanlar daha çox söz toplusu əldə edəcək və ünsiyyət zamanı çətinlikdən uzaq olacaqlar.

"Eşitmə və Nitq Məhdudiyyətli Şəxslərə Sosial Yardım" İB-nin rəhbəri Cəmilə Abdulovanın sözlərinə görə, eşitmə və nitq məhdudiyyəti olan insanlarla ünsiyyət qurmağı asanlaşdıracaq məlumat xarakterli kitaba böyük ehtiyac vardı: "Bizim İctimai Birliyə bu kitab üçün çoxsaylı müraciətlər daxil olurdu. İnanıram ki, birgə əməkdaşlığımız sayəsində yeni üzlükdə çap edilən "Səssiz Dünyaya Körpü" kitabımızdan çoxlu sayda insan yararlanacaq və bu vəsait vasitəsilə eşitmə və nitq məhdudiyyətli insanların "səssiz dünya"larına səs salmış olacaqlar. Bizə bu işdə göstərdikləri böyük dəstək üçün "Nar"-a təşəkkür edirik".

"Azerfon"un İctimaiyyətlə Əlaqələr Departamentinin rəhbəri Əziz Axundov "Nar"-ın dəstəyi ilə çap edilən bu kitabın eşitmə və nitq məhdudiyyəti olan insanlar və onların ailələri üçün yararlı olacağına inandığını bildirib: "Mobil Operator olaraq ünsiyyətin insanlar üçün çox önəmli olduğunu anlayırıq. Bizim təqdim etdiyimiz xidmətlər sayəsində insanlar məsafədən və məkandan asılı olmayaraq öz yaxınları və tanışları ilə ünsiyyətdə ola bilirlər. Əminəm ki, nəşr etdirdiyimiz "Səssiz dünyaya körpü" adlı kitab eşitmə və nitq məhdudiyyətli olan həmvətənlərimiz üçün yararlı vəsait olacaq və onlara daha çox ünsiyyətdə olmaq imkanı yaradacaq".

Qeyd edək ki, fiziki məhdudiyyətli şəxslərə dəstək "Nar"-ın KSM strategiyasının ən vacib istiqamətlərindən biridir. Mobil operator fiziki məhdudiyyətli insanların cəmiyyətə inteqrasiya olunması istiqamətində bir çox uğurlu layihələr gerçəkləşdirib. "Nar" fiziki məhdudiyyətli insanların müxtəlif peşələrə yiyələnməsi üçün bölgələrdə "Təlim məktəbi" təşkil edib, eyni zamanda fiziki məhdudiyyətli insanların işlə təmin olunması üçün müxtəlif karyera sərgilərində iştirak edib. Yerli biznes mühiti üçün nümunə olaraq qeyd etmək lazımdır ki, "Azerfon" şirkətində hazırda fiziki məhdudiyyətli şəxslər çalışır.

"Nar" KSM strategiyası haqqında ətraflı məlumatı nar.az internet səhifəsindən öyrənmək olar.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni əhatə edir (işğal olunmuş ərazilər istisna olmaqla) və 7300-dən artıq baza stansiyası ilə 2,1 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

# "Mənim Bakcellim" mobil applikasiyasında yenilik: "Bakcell" dən onlayn çat

Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkəti ölkənin telekommunikasiya bazarında ilk və ən innovativ müştəri xidməti aləti olan - "Mənim Bakcellim" applikasiyasına mühüm yenilik əlavə edib. Belə ki, abunəçiləri daha rahat və əlverişli müştəri təcrübəsi ilə təmin etmək üçün Bakcell özünün "Mənim Bakcellim" applikasiyasında Onlayn Çat funksiyasını işə saldı. Onlayn Çat vasitəsilə Bakcell abunəçiləri istənilən vaxt operatorla canlı əlaqə qurub öz suallarını verə bilərlər.

Qeyd edək ki, abunəçilərini rahat, şəffaf və əlverişli müştəri təcrübəsi ilə təmin etmək üçün Bakcell virtual müştəri xidməti tətbiqetməsini istifadəyə verdi. "Bakcell"in özünəxidmət tətbiqetməsi sayəsində nömrə ilə bağlı əməliyyatlar etmək üçün xidmət mərkəzinə getməyə və ya məlumat mərkəzinə zəng etməyə ehtiyac qalmadı.




"Mənim Bakcellim"dən istifadə edən abunəçilər öz nömrələrinin hesabı ilə bütün lazımı əməliyyatları həyata keçirməklə yanaşı balans, aktiv bonuslar, istifadə etdikləri xidmət və ya məhsulun qüvvədən düşmə tarixi, balansda qalan məqabaytlar və nömrə barədə digər məlumatları müştəri xidməti mərkəzinə getmədən, növbədə gözləmədən və hətta məlumat mərkəzinə zəng vurmadan əldə edirlər.

Bundan əlavə, "Mənim Bakcellim" istifadəçiləri nömrələrinin balansı ilə bağlı maksimum şəffaf informasiyaya malik olacaqlar. Belə ki, abunəçilər zəng olunmuş nömrələrin siyahısı, zənglərin vaxtı və müddəti, sərf olunmuş məbləğlər və əlavə xidmətlərdən istifadə daxil olmaqla nömrənin istifadə tarixçəsinə aid bütün məlumatlara tam nəzarət edə biləcəklər.

Azərbaycanın ən müştəri yönümlü və innovativ telekommunikasiya xidmətləri təchizatçısı olan Bakcell öz abunəçilərini rəqəmsal müştəri təcrübəsi ilə yanaşı ən yeni məhsul və xidmətlərlə təmin edir. Şirkət bunun üçün zəruri olan ən sürətli və yüksək keyfiyyətli mobil rabitə şəbəkəsi qurmağa nail olub. Bakcell abunəçilərin arzu, təklif və ehtiyaclarını nəzərə alaraq, mobil xidmətlərdən istifadə zamanı onları əhəmiyyətli dərəcədə rahatlıq və şəffaflıqla təmin edir. Abunəçilərə təqdim olunan xidmətin keyfiyyətini artırmaq məqsədilə "Mənim Bakcellim" vasitəsilə təmin edilən müştəri təcrübəsi daim ölçülür və diqqət mərkəzində saxlanılır. Xidmət səviyyəsinin daha da yüksəldilməsi üçün Bakcell öz abunəçilərinin bütün rəy və təkliflərini nəzərdən keçirir və yeni mobil applikasiyanı Google Play və Appstore portallarında qiymətləndirib müvafiq rəy yazmağa dəvət edir.

"Mənim Bakcellim" mobil tətbiqetməsini Android və iOS sistemləri ilə çalışan cihazlar üçün "Google Play" və "Appstore" portallarından yükləmək olar. Qeyd edək ki, qeydiyyatdan keçəndən sonra abunəçilər kompüter və planşet kimi cihazlarda "Mənim Bakcellim" proqramının "desktop" versiyasından yararlana bilərlər. Daha ətraflı məlumat və proqramı yükləmək üçün linklər https://www.bakcell.com/az/my-bakcell səhifəsində yerləşdirilib.

TƏRS BAXIŞ

# Məhəmməd Mirzəli Avropa dəyərlərini təhqir etdi

*Yaxud qrantbazların maliyyə "krantları" niyə bağlandı?*

***Bir neçə gün bundan öncəyə qədər Avropanı "tərif atına" mindirib, sosial şəbəkədə ora-bura çapanların, yəni qrantbazların maliyyə "krantları" bağlanıb və bunun da səbəbləri var. Əslində, bunlar özləri-özlərini ifşa ediblər. Məhəmməd Mirzəli ilə Tural Sadıqlının qrant üstündə bir-birlərinə olmazın təhqiramiz sözlər demələri, məhz erməni lobbisinin dəstəyi ilə fəaliyyət göstərən xarici fondlardan aldıqları ianələrə görə, açıq-aşkar etiraflarda bulunmaları, artıq özü-özlüyündə bütün kartları açığa çıxarıb.***

### Məhəmməd Mirzəli: "300 avro nədir? 300 avroya Avropada heç it də saxlamaq olmaz"

Digər tərəfdən, biz bu məsələdə daha bir maraqlı məqamın şahidlərinə çevrilirik. Misal üçün, M.Mirzəlinin T.Sadıqlını 80 min avro dəyərindəki qrantı mənimsəməkdə ittiham etməsinin ardınca ona "tulapayı" şəklində 300 avro təklif etməsinə cavabını xatırlayaq. SİTAT: "300 avro nədir? 300 avroya Avropada heç it də saxlamaq olmaz".

Halbuki bu, həmin M.Mirzəlidir ki, gecə-gündüz Avropa dəyərlərini sadalayaraq, oranı "cənnətməkan" elan etmişdi. Məsələn, Avropada hər şeyin ucuz olması, insan hüquqlarına huma-



nist münasibət və s. məsələləri daim önə çıxaran Mirzəli birdən-birə 300 avro pulla bu qitədə iti də saxlamağın mümkünsüzlüyünü etiraf edib.

### Məhəmməd Mirzəli onu da etiraf edib ki, bu qitədə ona, eləcə də Tural Sadıqlıya, habelə, Orduxan Teymurxana və dəstəkçilərinə it dəyərini belə vermirlər

Məhz bu sözlərindən sonra onu və T.Sadıqlını maliyyələşdirən bəzi ermənipərəst donorların qrant məsələsində geri çəkildikləri barədə məlumatlar yayılmaqdadır. Artıq Azərbaycan dövləti və hakimiyyəti əleyhinə fəaliyyət göstərən bəlli xarici fondlar ifşa olunduqlarının fərqinə varmağa başlayıblar.

O cümlədən, M.Mirzəli onu da etiraf edib ki, bu qitədə ona, eləcə də T.Sadıqlıya, habelə Orduxan Teymurxana və dəstəkçilərinə it dəyərini belə vermirlər. Sadəcə, onlar bir-birlərini aldatmaqla, pul-paralarını yeməklə bu günlərini, necə deyərlər, sabahkı günlərinə calayırlar. Əgər belə olmasa idi, Mirzəli tumanını başına çəkib, bu qədər haray-şivənlik də salmazdı. Deməli, bənzər məsələlər bu kimi siyasi dəllalların, qrantbazların arasında birinci dəfədir ki, baş verməyib.

### Qurban Məmmədovun tərəfdarları "Azad söz"ün bağlanmasını bumeranq effekti adlandırdılar

Yeri gəlmişkən, bu məsələ ictimailəşər-ictmailəşməz, bir müddət qabaq, Qurban Məmmədova qarşı hücumlar edən bəlli adamlar - M.Mirzəli, T.Sadıqlı və sairləri qarşı tərəfin "Azerifreedom" - "Faxebook" vasitəsi ilə işləyən kanalının bağlanmasına sevindiklərini gizlətməmişdilər. Məhz həmin ərəfələrdə Q.Məmmədovun onların üzərində daha çox "reytinq" qazanacağından ehtiyat edən bu şəxslər indi özlərinin yayım kanallarının bağlanmasına şahid olublar. Əbəs deyil ki, Q.Məmmədova dəstək verənlər "Azad söz" adlı riyakar qurumun bağlanmasını bumeranq effekti adlandırırlar.

Beləliklə, fakt budur ki, öz aralarında 80 min avroluq qrantları bölə bilməyənlər hələ bundan sonra daha sərt və barışmaz qarşıdurmalara gedəcəklər. Bu isə, çoxdan proqnozlaşdırılan bir reallıq idi ki, nəticə etibarilə baş tutmuş sayıla bilər.

***Rövşən RƏSULOV***



## Müxalifətin mitinq xəstəliyi

RƏFİQƏ

***Fikirləşəcəksiniz ki, bu, nə başlıqdır? Ancaq bugünkü müxalifətin həyasızlığını görəndə başqa söz tapa bilmirsən. Deyir həya-abır yaxşı şeydir, ancaq qanan üçün. Əgər 30 ilə yaxın bir müddət ərzində, ardıcıl olaraq, biabırçı mitinqlər keçirən müxalifət hələ də bu reallığı anlamırsa, bunu ancaq quduzluq adlandırmaq olar.***

Bu gün dağıdıcı müxalifət liderlərinə bu infeksiya keçib. Bu viruslar elə zənn edir ki, mitinq keçirməklə nəyəsə nail ola biləcəklər. Doğurdan da, bədbəxt belələrinə deyirlər. Bu bədbəxtlər 30 ilə yaxındır ki, "bəlkə də qaytardılar" xəyalı ilə özlərinin maddi maraqlarını və siyasi ambisiyalarını təmin etmək üçün mitinq keçirməyə üstünlük verirlər. AXCP, "Müsavat" və "Milli Şura" kimi dağıdıcı siyasi qruplaşmalar daha çox canfəşanlıq edir və bu fəaliyyət növü anti-Azərbaycan dairələrin diktəsi ilə həyata keçirilir. Xüsusilə də, AXCP sədri Əli Kərimli və "Milli Şura"nın formal sədri Cəmil Həsənli Qərb dairələrinin mitinq keçirmək tapşırığını yerinə yetirməklə qrant qazanmağa nail olublar. Beləliklə də, dağıdıcı düşərgə quduzları terrorçu və radikal qruplaşmaları dəstəkləməklə, öz siyasi simalarını aşkar şəkildə ortaya qoyurlar. Bununla da onlar Azərbaycan dövlətinin maraqlarına düşmən münasibətlərini büruzə verməklə yanaşı, terrorçularla həmrəy olduqlarını açıq göstəriblər. Başqa bir fakta diqqət yetirək. Xatırlayırsınızsa "Milli Şura"nın mitinq şousunda "İŞİD" bayrağı qaldırılmışdı və bu heç də təsadüfi deyildi. "Milli Şura"da cəm olmuş radikal düşərgə nümayəndələrinin bu cür ekstremist mövqedən çıxış etmələri təəccüblü görünmür. Bundan öncə, dəfələrlə məlum olub ki, dağıdıcı müxalifət partiyalarının təmsilçiləri erməni lobbisini başlıca tərəfdaş kimi qəbul edib və ən ifrat daşnaklardan belə artıq ermənilik edirlər. Amma bu ünsürlər sadə bir gerçəkliyi dərk etmirlər ki, iqtidar olmaq - hakimiyyətə gəlmək üçün hansısa xarici dairələrdən yox, məhz xalqdan dəstək almaq lazımdır.

### İran polisi iki tona yaxın narkotik maddə müsadirə edib

İranın Sistan-Bəlucistan bölgəsində həyata keçirilən xüsusi əməliyyat zamanı iki tona yaxın narkotik maddə müsadirə edilib. AZƏRTAC bölgənin polis rəisi general Məhəmməd Qənbəriyə istinadən xəbər verir ki, əməliyyat zamanı polis qüvvələri qaçaqmalçıların silahlı müqaviməti ilə qarşılaşıblar. Silahlı toqquşma nəticəsində iki qaçaqmalçı məhv edilib, ikisi isə həbs olunub.

Polis rəisi bildirib ki, bölgənin Xaş şəhərində keçirilən əməliyyat zamanı 1,425 ton tiryək, 69,768 kiloqram heroin və 1,850 kiloqram digər narkotik maddə müsadirə edilib. Eyni zamanda, iki "Kalaşnikov" avtomatı da ələ keçirilib. M.Qənbərinin sözlərinə görə, İran polisi bölgədəki vəziyyəti nəzarətdə saxlayır və narkotik qaçaqmalçılığının qarşısı qətiyyətlə alınır.

### Konqoda Ebola virusuna yoluxanların sayı 421 nəfərə çatıb

Konqo Demokratik Respublikasında Ebola virusuna yoluxanların sayı 421 nəfərə çatıb, onlardan 241-i dünyasını dəyişib. AZƏRTAC xarici KİV-lərə istinadla xəbər verir ki, bu barədə məlumat Konqo Səhiyyə Nazirliyinin "Facebook" səhifəsində yerləşdirilib. Qurumun məlumatına əsasən, noyabrın 27-nə qədər Şimali Kivu və İturi əyalətlərində 421 yoluxma halı müşahidə edilib ki, onlardan 374-ü öz təsdiqini tapıb. Bununla yanaşı, xəstələrdən 125-ni müalicə etmək mümkün olub. 2015-ci ildə Qərbi Afrikanın əsasən 3 ölkəsində - Qvineya, Serra-Leone və Liberiyada tüğyan edən Ebola virusunun səbəb olduğu kəskin infeksiya xəstəliyi 13 min insanın həyatına son qoyub.

## Qrant rəzaləti: "Sən nə zəhərli ilanmışsan, əəə?!"

*Xaricdəki "mühacirlər" aldıqları qrantları bölüşdürə bilmirlər*

***Azərbaycanın beynəlxalq aləmdə nüfuzu artdıqca, bu nailiyyətləri həzm etməyi bacarmayan məkrli qüvvələr bütün vasitələrə əl ataraq, anti-Azərbaycan kampaniyalar təşkil edirlər. Faktlar da bunu təsdiqləyir. Belə ki, Azərbaycanda beynəlxalq əhəmiyyətli tədbirlər keçiriləndə, o cümlədən, "Avroviziya-2012" beynəlxalq musiqi yarışmasına, "Bakı-2015": Birinci Avropa Oyunlarına, "Formula-1"-ə, "Bakı-2017": İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi edəndə, xarici ölkələrdə Azərbaycan əleyhinə təbliğata start verildi.***

Sapı özümüzdən olan baltalar ermənipərəst dairələrin qrantları hesabına "Demokratiya naminə oxu" və sair bu kimi kampaniyalara başladılar. Eyni mənzərə Azərbaycanda keçirilən seçkilər ərəfəsində də aydın şəkildə müşahidə edildi. Parlament, bələdiyyə, prezident seçkiləri ərəfəsində, həmçinin konstitusiyaya dəyişikliklər üçün ümumxalq səsverməsi - Referendum öncəsi düşmən dəyirmanına su tökməyi özlərinə şərəfsizlik bilən dağıdıcı müxalifət satqınlar - Əli Kərimli, İsa Qəmbər, Arif Hacılı, Cəmil Həsənli, Rüstəm İbrahimbəyov, Gültəkin Hacı-



bəyli, Leyla Yunus, Xədicə İsmayıl və digərləri həmişə olduğu kimi bu gün də 5-10 avro müqabilində beynəlxalq aləmdə Azərbaycan haqqında yanlış rəy formalaşdırmağa çalışırlar.

### "Siyasi mühacirlər" - dağıdıcı müxalifətin törəmələri qırğına çıxdı

Bu gün dağıdıcı müxalifətin törəmələri olan və xarici ölkələrdə Azərbaycan əleyhinə "sapı özümüzdən olan baltalar" ermənipərəst dairələrin qrantları hesabına Azərbaycana qarşı şər və böhtan kampaniyası aparırlar. Vətən xainləri - Həbib Müntəzir, Arzu Qeybulla, Orduxan Teymurxan, Məhəmməd Mirzəli, Tural Sadıqlı, Arif Məmmədov, Qənimət Zahidov, Natiq Güləhmədoğlu, Fikrət Hüseynov, Ataxan Əbilov, Arif, Leyla və Ramiz Yunus kimi antimilli şərəfsizlər öz çirkin əməllərinə görə qrantlarla təmin olunur və bu qrantlar isə onları üz-üzə qoyur və nəticədə, qırğına çıxırlar. Belə ki, Avropada yaşayan mühacirlər, yəni Məhəmməd Mirzəli və Tural Sadıqlının xaricdən alınan qrantların bölüşdürülməsində bir-birilərini saxtakarlıqda günahlandıraraq, söyüşün biri bir qara qəpiyə dəyən küfürlər ediblər. Bu savaşın səbəbi isə təxminən 210 min avrodur. Bəlli olur ki, həmin çirkli pulları, "mühacirlər"in ərməni "mama mühacir" L.Yunus düzüb-qoşub. Bu pullar da O.Teymurxan Bəbirov, M.Mirzəli, T.Sadıqlı və daha 5 nəfərin arasında bölüşdürülməli imiş. Ancaq xəmirləri böhtan və satqınçılıqla yoğrulanlar "dostları" M.Mirzəliyə qrantın ucunu da göstərməyiblər. O zaman didişdilər, nə didişdilər. Əli hər yerdən üzülən M.Mirzəli də antiAzərbaycan kampaniyaları barədə bütün çirkin əməlləri açıqladı.

Göründüyü kimi, qrant uğrunda savaş qızışdıqca Azərbaycan əleyhdarlarının çirkli pulları ilə bəslənən və onların dirijor çubuğu ilə idarə olunan bu xəyanətkarların özləri boyda zibilləri getdikcə daha çox üzə çıxacaq. Sonda bu satqın xəyanətkarlara böyük dramaturq Mirzə İbrahimovun "Böyük dayaq" filmində deyilən sözü təkrarlamaq kifayətdir : "Sən nə zəhərli ilanmışsan, əəə ?!"

***Rəfiqə HÜSEYNOVA***

# Demokratik idarəçilik şəraitində humanizm və insan haqları fəlsəfəsi

***Fərdin suverenitetinin bəyan edilməsi ən böyük zərbəni dəyərlərə endirir. İnsanın ən ali dəyərlərdən biri kimi qiymətləndirilməsi təqdirəlayiq hadisədir. Bəşər nəslinin böyük nailiyyətidir. Lakin unutmaq olmaz ki, dəyər sözünün iştirak etdiyi yerdə, yəni insanın dəyər sayıldığı məqamda onun hansı mənəvi dəyərləri daşımasına önəm verilməlidir. İnsanın dəyəri, onun mənəvi dəyərlərə həssaslığı, seçimi qədərdir.***

Bütün dəyərləri inkar edən, həyatını nihilizm üzərində quran insanın dəyəri şübhəlidir. Hətta keçid, böhran mərhələlərində dəyərlər sisteminin transformasiyaya uğradığı dövrlərdə də onlara münasibətin nihilizm səviyyəsinə enməsi arzuolunmaz nəticələrə gətirib çıxarır. Qərb dünyagörüşündə isə, məhz belə münasibət dərin kök salmışdır.

F.Nitşe, əvvəldə qeyd edildiyi kimi, "Hakimiyyət iradəsi" adlı əsərinə ön sözdə qeyd edirdi ki, nihilizmin gəlişi labüddür. Ənənəvi dəyərlərin rədd edilməsi (nihilizm) gec-tez baş verməlidir. Çünki bu vaxta qədər malik olduğumuz dəyərlərin artıq heç bir "dəyəri yoxdur". Onlar tükənmişdir. Elə buna görə də, biz nihilizm dövrünü yaşamalıyıq ki, bu dəyərlərin heç bir əhəmiyyətə malik olmadığını dərk edə bilək.

Fəlsəfə elmləri doktoru Ziba Ağayeva yazır: "Müasir Qərb cəmiyyəti, doğrudan da, nihilizmin F.Nitşenin qeyd etdiyi nöqtəsinə gəlib çatmışdır. Tarix sübut etmişdir ki, yeni dəyərlər sistemini formalaşdırmadan, ənənəvi dəyərlər inkar etmək heç vaxt müsbət nəticə verməmişdir. Əksinə, yeni dəyərlər yalnız mövcud olanların zamanın ruhuna, bəşəriyyətin mənafeyinə uyğun şəkildə, ən müxtəlif mədəni-mənəvi dəyər modellərinin sintezi şəklində təkmilləşməsi və həyata keçirilməsini tələb edir. Məhz bu cür əbədi, tarixin sınağından çıxan dəyərlərdən biri də humanizm - insanpərvərlikdir. Müasir dünya elmi ictimaiyyəti qlobal mənəvi böhrandan çıxış rolunu, məhz humanizmin yeni səviyyədə dirçəldilməsində görür. Tənhalıq, əsasən, mənəvi köklərə malik olduğundan, onun aradan qaldırılması da, fikrimizcə, humanizm faktoruna əsaslanmalıdır. Bu baxımdan, humanizm onun mahiyyəti, sözün kökündəki "insan" sözünün statusu barədə bir qədər geniş danışaq.

İnsanın fundemental insani keyfiyyətlərindən uzaqlaşmasını, öz mahiyyətinə özgələşməsini "dehumanizasiya" anlayışı ilə ifadə edirlər. Tənhalığın çoxsaylı təzahürləri, insanın mədəniyyətdən, mənəviyyatdan, cəmiyyətdən, dindən, təbiətdən və s. özgələşməsini bir sözlə - dehumanizasiya sözü ilə də ifadə etmək olar. Belə vəziyyətdə humanistləşməni müasir dövrün qlobal çağırışı qismində bəyan etməyə nə kimi ümidlər əsas verir? Qloballaşan dünyada insanın ziddiyyətli həyat tərzini bir çox problemlərdən azad etmək üçün humanizm dəyəri, dünyagörüş, mənəvi vasitə, ideologiya, sosial-mədəni mexanizm kimi hansı potensiala malikdir?

Humanistləşmiş dünya idealı hər hansı bir amilin, dəyərin mütləqləşdirilməsi deyil, bütün dəyərlər sisteminin - əxlaqi-etik, ənənəvi-estetik, intellektual, sosial və s. dəyərlərin vəhdəti deməkdir. Humanizmin dünyagörüşü kimi formalaşması taleyüklü məsələdir. Dünyagörüşü sözündə iki anlayış: dünya və ona münasibət məsələsi ifadə olunmuşdur. Sosial varlığın mükəmməl modelini təmin edən dünyagörüşünün formalaşması müasir informasiya cəmiyyətində bir tərəfdən, asanlaşmışdır, digər tərəfdən isə, daha da mürəkkəbləşmişdir. Dünyagörüşü iki məqamı özündə ehtitva edir. Burada əvvəlcə yaşadığın dünyaya dair məlumat, obyektiv biliklər, daha sonra isə bu gerçəkliyə konkret insanın münasibəti də iştirak edir. Bu gün dünya haqqında informasiya fövqəladə dərəcədə çoxdur və onun mənimsənilməsi və müstəqil münasibətin formalaşdırılmasıısə çox çətindir. Deyilənlər humanizmin dünyagörüşü qismində formalaşmasına, şüurda yer almasına da tamamilə aiddir."

Fəlsəfə elmləri doktoru Əbülhəsən Abbasovun fikrincə, dünyanın qabaqcıl ölkələrinin tarixinə nəzər salsaq, onların demokratik prinsiplərə söykənən idarəetmə fəlsəfəsi sayəsində sosial-iqtisadi, elmi-texniki və texnoloji cəhətdən inkişaf etdiyini görərik. İnkişaf etmiş dövlətlər qanunun aliliyi, insan hüquqlarının təmin olunması, yaxşı idarəetmə, azad bazar iqtisadiyyatı., hakimiyyət bölgüsü, vətəndaş cəmiyyəti, vətəndaş fəallığı, azad seçkilər, qeyri-hökumət təşkilatlarının ictimai həyatda məhsuldar rolu və s. faktorlarla səciyyələnir. Müasir demokratiyanın atributları olan bu faktorlar cəmiyyətdə insan hüquqlarının ən yüksək səviyyədə təmin edilməsi və müdafiə olunması üçün tam zəmin yaradır. Demokratik dövlətlərdə qəbul olunmuş qanunlar insan hüquqlarının təşviq olunmasına, müstəqil məhkəmə sistemləri və digər dövlətdaxili mexanizmlər vasitəsi ilə müdafiə olunmasına xidmət edir. Dövlətdaxili mexanizmlər dedikdə, dövlətin insan hüquqlarının müdafiə olunması məqsədi ilə Ombudsman İnstitutunun, müəyyən profilli dövlət qurumlarının yaradılması nəzərdə tutulur. Bu, demokratik dövlətlərin insan haqlarına verdiyi önəmin göstəricisidir. Demokratiyanın tam bərqərar olmadığı, mülayim siyasi rejimlərdə də bəzən olduqca geniş bir azadlıq sistemi yaradıla bilər.

"İnsan hüquq və azadlıqlarını yalnız demokratiya təmin edə biləcəkdirmi?" sualına gəldikdə isə, qeyd edə bilərəm ki, burada cavab demokratiyanın necə anlaşılması məsələsi ilə sıx əlaqəlidir. Əgər demokratiyanı çoxluğun tamamilə maneəsiz və məhdudiyyətsiz olaraq hər istədiyini edə biləcəyi mənasında anlayırıqsa, azadlıqlara yer verməyən "demokratiya" ilə də üz-üzə qala bilərik. Ancaq demokratiyanı klassik mənada qəbul ediriksə, azadlıqsız demokratiya ola bilmədiyi qənaəti meydana çıxır və insan haqlarının ən yaxşı formada bərqərar olmasını təmin edəcək optimal rejimin demokratik rejim olduğu şübhə doğurmur.

İnsan hüquqlarının dövlətin daxilində təmin edilərək müdafiə olunması üçün yaradılmış strukturlarla yanaşı, beynəlxalq müstəvidə də təsiredici addımların atılması vacibdir və bu sahədə daha sıx əməkdaşlıq üçün müəyyən mexanizmilər yaradılır. İnsan haqlarının təmin olunması və müdafiəsi sahəsində kifayət qədər uğurlu təcrübəyə malik dövlətlərin belə beynəlxalq mexanizmlərin yaranmasındakı marağını və fəallığını bəzi tədqiqatçılar demokratiyanın həmin dövlətlər tərəfindən "ixrac" edilməsi kimi qələmə verirlər. Beynəlxalq səviyyədə yaradılmış təminat və müdafiə mexanizmləri, əsasən Amerika Birləşmiş Ştatları və Avropada mövcuddur. Bu mexanizmlərin ən səciyyəvi cəhəti onların insan haqlarının müdafiə olunması və bu haqları pozan dövlətlərin mühakiməsi məqsədi ilə fərdi qərar və tövsiyələr qəbul edə bilməsidir.

Müəllif yazır: "Eyni zamanda, demoktratik idarəetmə sistemlərinə malik dövlətlərdə insan haqlarının müdafiəsinin təmin edilməsi üçün yaradılmış dövlət qurumlarından başqa, bu məqsədlə fərdlərin özləri tərəfindən yaradılmış ictimai birliklər, qeyri-hökumət təşkilatları və s. fəaliyyət göstərir. Belə ictimai təşkilatların mövcudluğu, bir tərəfdən, demokratik cəmiyyətin atributu kimi insan haqlarının müdafiəsinin gücləndirilməsinə, digər tərəfdən isə, insan haqlarının müdafiəsində ictimai rəyin iştirakına xidmət edir. Müasir dövrdə hər hansı bir cəmiyyətin demokratikliyindən danışarkən, ilk növbədə, bu cəmiyyətdə insan hüquqlarının təmin, olunması və müdafiəsi səviyyəsi qiymətləndirilir. Bu, insan haqlarının demokratik sistemin əsas legitimlik göstəricisi olduğunu sübut edir. Deməli, insan hüquq və azadlıqlarının ən yüksək səviyyədə təmin olunması demokratik-idarəetmə sistemlərinə malik dövlətlərdə mümkündür. Belə yüksək təminat fərdlərin və ictimai təşkilatları iddia etdikləri təmiz ekologiyası olan mühitdə yaşamaq hüququ, istehlakçı hüququ, həmrəy olmaq hüququ və s. yeni hüquqların təşəkkülü üçün zəmin yaratmış olur.

Məlumdur ki, heç də bütün cəmiyyətlər demokratik deyildir. Bu isə, o deməkdir ki, insan hüquq və azadlıqları az müdafiə olunan və ya, demək olar ki, heç müdafiə olunmayan cəmiyyətlər də mövcuddur. Demokratilik elementlərinin zəif olduğu belə sistemlərin fəaliyyət formaları fərqli olmuşdur. İnsan haqlarının ən qəddar şəkildə pozulması totalitar rejimli cəmiyyətlərdə baş vermiş olur. "Totalitarizm" məfhumu, ilk dəfə siyasi terminaiogiya kimi, XX əsrin 20-ci illərində İtaliyaya rəhbərlik etmiş F.Mussolini tərəfindən işlədilmişdir. Həmin dövrdə İtaliyadakı rejimi məhz bu termin vasitəsilə xarakterizə edən Mussolini bütün xalqın vahidliyini totalitar dövlətin qurulması ilə əlaqələndirirdi.

Totalitar rejimlər Y.Zamyatinin "Biz" O.Hakslinin "Heyranedici yeni dünya" əsərlərində qapalı rasional-texnokratik cəmiyyətlər kimi ifadə olunur. Totalitar cəmiyyətlərdə insanları mənəviyyatdan kənarlaşdıraraq və onları adi, sadəcə bir "alətə" çevirərək, mənəvi və əxlaqi dəyərlərindən məhrum edirlər. Daha doğrusu, buna çalışırlar və çox vaxt xeyli dərəcədə nail olurlar. Burada insanlar, nəinki hüquq və azadlıqlarından, hətta mənsub olduqları mədəniyyətlərindən də imtina etmək məcburiyyətində qalırlar."

Z.Ağayeva göstərir ki, humanizm, eyni zamanda, onun tam əksini təşkil edən anti-humanızm fenomeninin kökləri sivilizasiyanın yarandığı dövrlərə qədər gedib çıxır. Demək olar ki, insanın xeyir və şər arasında seçim etdiyi məqamdan başlayır. Paradoksal səslənsə də, humanizm və antihumanizm müasir dövrün, xüsusilə, Qərb mədəniyyətində mövcud olan insan problemini ifadə edən polyar və dual fenomenlərdir. Onların münaqişəli, gərgin dialoqu Qərb fəlsəfəsinin və mədəniyyətinin səciyyəvi xüsusiyyətinə çevrilmişdir.

Tarixən humanizm və antihumanizm insanlıq və ona qarşı irəli sürülən iddiaların antropoloji dilemması kimi mövcud olaraq, çoxşaxəli çeşidli təzahürlərə malik olmuşdur. Tədqiqatçılardan birinin qeyd etdiyi kimi, "ən müasir dünyagörüşü və mənəviyyat, XX və XXI əsrlərin insanlığa dair təsəvvürlərində humanizm və anthumanizm arasındakı münaqişənin nəticəsindən asılı olacaqdır."

Göründüyü kimi, humanizm və humanistləşmə müasir dövrün ümumbəşəri, mənəvi paradiqması düşüncə tərzi və dəyərlər sistemi statusunu alır.

Humanizm, latınca "humanus" - insani, insana xas olan" sözündən olub, insanın, onun varlığının ən ali dəyər olduğunu irəli sürən dünyagörüşüdür. Onun azadlığı, istedadı, zəkası, hüquqları prioritet hesab edilir. Bu mövqenin tərəfdarları humanistlər adlanır. Maraqlıdır ki, antik dövrdə bir-biri ilə yazışma vasitəsi ilə ünsiyyət quran intellektuallara "humanistlər" deyilirdi. Bəlkə də humanizmin tarixən mövcud olan bu ilk forması onun mahiyyətini daha dəqiq ifadə edirdi. Hətta belə bir qənaət də mövcuddur ki, roman janrı, "qalın kitab" - bu, uzun yazışmaların nəticəsində formalaşmışdır. Qədim Romada Siseronun müasirləri məktub vasitəsilə ünsiyyət saxlayan, savadı və dili ilə insanlara təsir edərək, onları mənəvi cəhətdən təkmilləşdirən insanları humanistlər adlandırırdılar.

Göründüyü kimi, humanistlər ilkin mənada dostluğu, ünsiyyəti, başqasına diqqəti və həssaslığı dəyərləndirən insanlar kimi qəbul edilmişlər. "Bu gün üç min il ərzində fəlsəfənin mövcudluğu hələ də davam edirsə, bu, onu sevənlərin dostluq və dostları haqqında, öz dostlarına mətnlər yazmaq vərdişinin, dialoqu saxlamaq ənənəsinin sayəsində mümkün olmuşdur. Fəlsəfəni nəsillərdən-nəsillərə göndərilən fasiləsiz mətn və onun müəlliflərinin həqiqət və ünsiyyətə dair mübahisəli şərhləri kimi də təsəvvür etmək olar."

**VAHİD ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*




## "Bakcell"in rouminq xidmətindən istifadə daha da asanlaşdı

Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkəti özünün rouminq xidmətlərindən istifadəni daha da əlçatan edib. Belə ki, yeni istifadəyə verilmiş USSD funksionallığı sayəsində abunəçilər "Bakcell"in bütün rouminq təklifləri barədə məlumat almaq və tələblərinə tam şəkildə cavab verən sərfəli paketlərdən birini seçmək imkanına malikdirlər.

Mobil telefonlarında *125#YES kodunu yığmaqla, abunəçilər çox sadə və rahat USSD menyusuna giriş əldə edib, "Bakcell"in təklif etdiyi paketlərin birini seçə və mövcud rouminq paketinin balansını yoxlaya biləcəklər.

Qeyd edək ki, yeni USSD funksionallığı internetdən istifadəni tələb etmir və tam olaraq PULSUZ təqdim edilir. Bu il Bakcell şirkəti rouminq xidmətlərini daha sərfəli etmək məqsədilə yeni rouminq paketlərini təqdim edib. "Bakcell"in yeni "Rouminqdə İnternet" paketləri səyahət zamanı internetdən çox istifadə edən müştərilərin ürəyincə olacaq. 40-dan çox ölkədə təqdim olunan bu paketlər sayəsində Wi-Fi axtarmağa və ya yerli operatorun SİM kartını almağa ehtiyac yoxdur. Bundan əlavə, "Rouminqdə İnternet" paketlərinin istifadəçiləri "WhatsApp"dan tam olaraq pulsuz istifadə edirlər (mətn və zənglər üçün). "Bakcell"in yeni gündəlik, həftəlik və aylıq "Rouminqdə hamısı daxil" paketləri isə xaricdə olarkən bol meqabaytlar, çoxlu dəqiqə və SMS-lər sayəsində sərfəli qiymətə tam ünsiyyət sərbəstliyini təmin edir.

Həmçinin xatırladaq ki, Bakcell şirkəti ölkənin telekommunikasiya bazarında ilk dəfə olaraq ən innovativ və unikal müştəri xidməti alətini - "Mənim Bakcellim" applikasiyasını təqdim edib. "Mənim Bakcellim"dən istifadə edən abunəçilər öz nömrələrinin hesabı ilə bütün lazımı əməliyyatları həyata keçirməklə yanaşı, Bakcell şirkətinin təklif etdiyi bütün rouminq təklifləri barədə məlumat almaq, sərfəli paketlərindən birini seçmək və hətta istifadə olunan rouminq paketin balansını yoxlamaq imkanına malikdirlər.

Yeni rouminq paketləri vasitəsilə Bakcell abunəçiləri səyahət zamanı heç bir məhdudiyyət və məsafə hiss etməyəcəklər. Şirkət müasir rabitə xidmətləri istifadəçilərinin tələb və ehtiyaclarını qarşılamaq məqsədilə innovativ həllər təklif etməyə davam edəcək.

## "Barselona"dan yeni rekord



"Barselona" daha bir rekorda imza atıb. Qol.az-ın xəbərinə görə, Kataloniya klubunun rekordu Çempionlar Liqasının qrup mərhələsinin PSV ilə səfər oyununda qeydə alınıb. Ernesto Valverdenin komandası 2:1 hesabı ilə qalib gəlməklə qrup birinciliyini rəsmiləşdirib. Bununla da, "Barselona" 20-ci dəfə ÇL-də öz qrupunun qalibi olub ki, indiyədək heç bir klub bu uğura nail olmayıb.

Qeyd edək ki, "Barselona" yalnız 3 dəfə ÇL-in qrup mərhələsini lider kimi tamamlamayıb.

## Sərbəst güləşçilərimiz İranda Ermənistan millisinə qalib gəliblər!

İranın Urmiya şəhərində keçirilən gənc güləşçilər arasında "Martyrs Cup" turnirində sərbəst güləşçilərin mübarizəsi başa çatıb. AZƏRTAC xəbər verir ki, məşqçilər Rövşən Hacıyev və Əşrəf Əliyevin rəhbərliyi altında Şahin Muxtarov, Mahir Məmmədzadə (hər ikisi 57 kq), Əsgər Məmmədəliyev, Tural Hüseynov (hər ikisi 61 kq), Elmar Kazımov (65 kq), Əşrəf Aşurov (70 kq), Davud İbrahimov (74 kq), Rəşad Yusifli (79 kq), İslam İlyasov (86 kq), Asxab Həmzətov (92 kq), Sənan Əlizadə (97 kq) və Aydın Əhmədovdan (125 kq) ibarət yığmamız qrupda əvvəlcə Urmiya ilə qarşılaşıb. Görüş 5:5 hesabı ilə başa çatıb. Fərdi qarşılaşmaların fərqinə görə, yerli komanda qələbə qazanıb. Millimiz bu məğlubiyyətin əvəzini İranın digər komandasından çıxıb - 7:3. Qrupdakı son görüşdə Ermənistana 6:4 hesabı ilə qalib gələn pəhləvanlarımız 3-cü yer uğrunda qarşılaşmaya vəsiqə qazanıblar. Yığmamız son görüşdə İranın daha bir komandası ilə üz-üzə gəlib. İki güləşçimizin zədələnməsi nəticəyə təsirini göstərib - 4:6. Beləliklə, millimiz Urmiyada 4-cü yeri tutub.



## Dünyanın ən yaxşısı Messi deyil, Luka Modriç oldu!

Beynəlxalq Futbol Tarixi və Statistikaları Federasiyası (İFFHS) dünyanın ən yaxşı futbolçusunun adını açıqlayıb. Qurumun rəsmi saytında yer alan xəbərə görə, 2018-ci ilin nəticələrinə əsasən, bu ada Xorvatiya millisi və "Real"ın yarımmüdafiəçisi Luka Modriç layiq görülüb. 33 yaşlı yarımmüdafiəçi 272 xalla "Berselona"nın hücumçusu Lionel Messinin son 3 ildəki hegemonluğuna son qoyub. Argentinalı futbolçu (114 xal) ikinci, "Çelsi"nin belçikalı yarımmüdafiəçisi Eden Hazard isə (114 xal) üçüncü olub.

Dünyanın ən yaxşı qapıçısı isə "Real"da forma geyinən Tibo Kurtua seçilib. Belçikalı qolkiper "Tottenhem"dən Uqo Loris və Canluici Buffonu geridə qoyub. Qeyd edək ki, dünyanın ən yaxşısını müəyyənləşdirmək üçün keçirilən səsvermədə 90 ölkənin ekspertləri iştirak edirlər.

## Səbinə Əzimova Azərbaycan Kubokunun qalibi olub



Noyabrın 29-da Şüvələndakı Ağır Atletika Akademiyasında ağır atletika üzrə Azərbaycan kuboku start götürüb. Azərbaycan Ağır Atletika Federasiyasından bildiriblər ki, körpücük üzərinə ilk olaraq qadınlar çıxıblar. Sinkleyr cədvəli üzrə mütləq qalibin müəyyən edilməsi uğrunda zərif cinsin nümayəndələrinin mübarizəsində Səbinə Əzimova fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. On səkkiz yaşlı atlet toplam 172 kiloqram (75+97) nəticə və 253,22 Sinkleyr xalı ilə təcrübəli rəqiblərini üstələməyi bacarıb.

İkinci yerə 171 kiloqram nəticə ilə (78+93) 233,29 xal toplayan Boyanka Kostova layiq görülüb. Üçüncü yeri isə 164 kiloqram (72+92) nəticə və 213,11 xalla Firuzə İbrahimova tutub. "Bu cür mötəbər yarışda iştirak etmək çox yaxşıdır. Kuboka hazırlığım çox ciddi keçdi. Yarışda rəqiblərimi asanlıqla məğlub edə bildim. Qarşıda Qətərdə baş tutacaq turnir var. Orada da yaxşı çıxış edib qızıl medal qazanmaq istəyirəm", - deyə S.Əzimova bildirib. Qeyd edək ki, Azərbaycan kubokunun keçirilməsində məqsəd atletlərin hazırlıq səviyyəsinin yoxlanılması, ehtiyat qüvvənin nəzərdən keçirilməsi, güclü idmançıların seçilməsidir.

## İdmançımız mas-resling üzrə dünya çempionatında gümüş medal qazanıb



Rusiyanın Yakutiya şəhərində mas-resling üzrə dünya çempionatı keçirilib. AZƏRTAC Gənclər və İdman Nazirliyinə istinadla xəbər verir ki, yarışda Azərbaycan idmançıları da iştirak ediblər. Çempionatda 55 kiloqram çəki dərəcəsində mübarizə aparan Şəfəq Məmmədova yalnız finalda Rusiya təmsilçisinə məğlub olaraq gümüş medalla kifayətlənib.

## Elan

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Məktəbəqədər təhsil, psixoloji xidmət, korreksiyaedici təlim fakültəsinin II kurs tələbəsi Davudova Firəngiz Mehman qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.


Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500